Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On beşinci sessiya
Yaz

66-cı cild

5 aprel 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 164

*Milli Məclisin iclas salonu.*
*5 aprel 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 105 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Kərəm Mansurov**, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri.

**Aida Əli qızı Hüseyn**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Teyyub Asif oğlu Muxtarov**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Müşfiq Kamil oğlu Həsənov**, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Elvin Əhəd oğlu Əliyev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Mehriban Cəfər qızı Qarayeva**, Bakı Apellyasiya

Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Emin Zöhrab oğlu Əliyev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Günel Məhərrəm qızı Abbasova**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Səadət Rəşid qızı Səlimova**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Səməd Fəxrəddin oğlu Cəfərov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Murad Akif oğlu Məmmədov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Tural Şəmsi oğlu Qocayev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Zaur Nazim oğlu Hüseynov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Əfqan Qəzənfər oğlu Ələkbərov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Faiq Nüsrət oğlu Mahmudov**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Mustafa Əli oğlu Mustafayev**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Toğrul Məhəmməd oğlu Əli**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Mirbahəddin Mirdamət oğlu Hüseynov**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Afiq Hüseyn oğlu Hüseynzadə**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**İsmayıl Rza oğlu Quliyev**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Əyyub Vaqif oğlu Kərimov**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Elman Bəhruz oğlu İsayev**, Şəki Apellyasiya Məh-

kəməsinin hakimi vəzifəsinə namizəd.

**Tural Həsən oğlu Həsənov**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Yaşar Xanoğlan oğlu Həşimov**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Fikrət Cilingir oğlu Hüseynov**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Habil Xanoğlan oğlu Bəhmənov**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Pərviz Vaqif oğlu Hacıyev**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsi.

2. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.

3. M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında.

4. Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.

5. Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.

6. Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.

7. Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi haqqında.

8. Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin

və vəzifədən azad edilməsi haqqında.

9. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (üçüncü oxunuş).

10. “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

18. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

19. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

20. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

21. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

22. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi

haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elman Nəsirov, Kamal Cəfərov, Əli Məsimli, Fazil Mustafa, Siyavuş Novruzov, Vüqar Bayramov, Ceyhun Məmmədov, Müşfiq Cəfərov, Razi Nurullayev, Etibar Əliyev, Fəzail İbrahimli

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Fəzail Ağamalı, Musa Qasımlı, Hikmət Məmmədov, Anar İsgəndərov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**3. M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**4. Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**5. Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**6. Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**7. Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**8. Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**9. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**10. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fəzail İbrahimli, Ziyafət Əsgərov, Fazil Mustafa, Məlahət İbrahimqızı, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**11. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**12. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**13. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Tahir Mirkişili, Musa Quliyev, Fəzail Ağamalı, Etibar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**15. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məlahət İbrahimqızı, Hicran Hüseynova, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**17. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**19. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**20. “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Fazil Mustafa, Əli Hüseynli, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Zahid Oruc, Sahib Alıyev, Elnur Allahverdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**21. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Tahir Mirkişili, Elnur Allahverdiyev, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**22. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Fəzail Ağamalı, Əli Hüseynli, İlham Məmmədov, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*5 aprel 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin, buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik. Gündəlik hamıya paylanıb, gündəliyə də münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |

İştirak edir 100
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var, 10 nəfər çıxış edə bilər. Gündəlikdə, ya da gündəmdə olan məsələlərlə bağlı, buyurun, yazılın. Onuncu çıxış Etibar Əliyevin çıxışı olacaq. Xahiş edirəm, digər siyahıda olanları çıxarsınlar, Fərid müəllim. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli qonaqlar. Bu gün, aprel ayının 5-də Brüsseldə Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı və Ermənistanın üçtərəfli formatda görüşü keçiriləcək. Bu görüşün nəticə etibarı ilə regionumuzda gedən proseslərə çox ciddi təsir göstərəcəyini indidən müəyyən etmək mümkündür. Həm də artıq Amerika Birləşmiş Ştatlarının dövlət katibi Blinken və Avropa İttifaqının rəhbəri səviyyəsində Ursula Fon der Lyayen Azərbaycan Prezidenti cənab İlham Əliyevə zəng edib vəziyyəti izah etmiş, Azərbaycan xalqının narahatlığını başa düşdüklərini bildirmişlər. Bu hadisənin özü bir daha onu göstərir ki, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqının rəhbərliyi səviyyəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevə çox yüksək qiymət verilir. Onun dünyadakı proseslərə çox böyük təsir imkanını və potensialını qiymətləndirirlər, nüfuzuna böyük hörmətlə yanaşırlar. Bu telefon zənglərinin məna və mahiyyətini məhz bu cür qiymətləndirmək lazımdır.

Amma, eyni zamanda, cənab Prezident çox açıq, konkret, qəti və prinsipial şəkildə bildirdi ki, bu görüşdə başqa məsələlərin, guya iqtisadi, demokratiya, Ermənistandakı islahatlarla bağlı məsələlərin müzakirə olunacağı

qeyd edilsə də, bizi narahat edən cəhət odur ki, birincisi, bu görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək, ikincisi, Ermənistanla birgə hərbi təlimlərin keçirilməsi, bundan savayı Ermənistan ilə Azərbaycan şərti sərhədində hərbi infrastrukturun qurulması və eyni zamanda, Avropanın Sülh Fondu və Amerika Birləşmiş Ştatlarının büdcəsindən Ermənistana hərbi maliyyə yardımının göstərilməsi ilə bağlı məsələlər müzakirə olunur. Bu məsələlərin müzakirə edilməsi regiona sülh, əmin-amanlıq gətirmir, əksinə, olduqca həssas bir dönəmdə çox ciddi təhlükəsizlik problemlərinin əmələ gəlməsinə şərait yaradır. Biz ümid edirik ki, Amerika Birləşmiş Ştatlarının, eyni zamanda, Avropa İttifaqının rəhbərliyi Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu məsələlərlə bağlı prinsipial mövqeyini nəzərə alacaq, Ermənistanla aparılan danışıqlarda heç bir halda Azərbaycanın əleyhinə qərar qəbul edilməsinə imkan verməyəcək. Əgər bu, baş verərsə, onda bundan sonrakı bütün proseslərə görə məsuliyyət Ermənistanın və ona havadarlıq edənlərin üzərinə düşür.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Son 6 ayda Ermənistan–Azərbaycan şərti sərhədi ən sakit dövrünü yaşayır. Hər iki ölkə arasında müxtəlif formada, həm də parlamentlər səviyyəsində təmaslar olubdur. Hazırda Ermənistan və Azərbaycan sülhə heç vaxt olmadığı qədər yaxındır. Ancaq bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək görüş Qərbin regional sülhlə bağlı səmimi olmamasını, regionda yeni bölücü xətlər və “təsir dairələri” yaratmaq cəhdini göstərir. Çünki bu görüş qeyri-şəffaf hazırlanıb, regional inklüzivliyi nəzərə almayıblar. Görüş qabağı ABŞ

Prezidenti Co Baydenin mövcud səhhəti fonunda hazırda dövləti de-fakto idarə edən dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək vəziyyəti izah etmək cəhdi İlham Əliyevin qlobal səviyyədə nüfuzunun və regionda Azərbaycanın rəyi nəzərə alınmadan sülh və əməkdaşlığın təmin edilməyəcəyinin göstəricisidir. Blinken cənab Prezidentlə telefon danışığında bu görüşün Azərbaycana qarşı olmadığını, Ermənistanla ticarət əlaqələrinin inkişafına həsr olunduğunu bildirib. Ancaq onun bu izahı heç bir halda ciddi qəbul edilə bilməz. Çünki Parisin, Vaşinqtonun, Brüsselin istənilən iqtisadi çağırışı ermənilər üçün Moskva bazarı ilə müqayisə olunacaq imkanı təmin edə bilməz. Hazırda erməni məhsullarının, kapitalının, ən əsası isə işçi qüvvəsinin Rusiya bazarına sərbəst çıxışı var. Rusiyada yaşayan ermənilərin sayı Ermənistanda yaşayan ermənilərin sayından çoxdur. İrəvanın əsas iqtisadi və nəqliyyat infrastrukturlarının benefisiarı rus şirkətləridir. Ermənistan və Rusiya münasibətlərinin tarixini və mürəkkəbliyini dəqiq bilən Qərb Ermənistanla iqtisadi əməkdaşlıqda heç bir perspektiv görmür. Əsas məqsəd Rusiyaya qarşı Ukraynadan sonra Ermənistanda yeni cəbhə açmaqdır. Bunu da regionda yeni münaqişə ocağı yaratmaq, Ermənistanı Azərbaycana qarşı revanşa hazırlamaq yolunda görürlər. Ermənistanın baş naziri Nikol Paşinyan özünü "bəla içində qalmış bacı" kimi təqdim edərək, onu almaq istəyən hər kəsə öz geosiyasi xidmətlərini təklif edir. Ancaq erməni xalqı Qərbin Ukraynaya göstərdiyi "dəstək"dən dərs çıxarmalıdır. Çünki Ukrayna nümunəsində Qərb ya verdiyi vədə əməl etmir, ya həmin vədə əməl etmək üçün kifayət qədər gücü yoxdur, ya da elə məqsəd müxtəlif dövlətlər vasitəsilə Rusiyaya qarşı

davamlı mübarizə aparmaqdır. Bu geosiyasi dərs fonunda Rusiyanın uzunmüddətli gözləmə mövqeyi və İranın müəmmalı susqunluğu Qərbi daha da ürəkləndirir.

Bizim mövqeyimiz isə qəti və aydındır. Azərbaycan Prezidenti antiterror tədbirlərindən sonra bildirmişdir: "Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz geosiyasi maraqlarını güdən, erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən, dar gündə satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər bizdən əl çəksinlər. Qoysunlar Cənubi Qafqaz rahat nəfəs salsın".

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Mən də deputat həmkarlarımın qaldırdığı məsələni dəstəkləyirəm və bəzi məqamlara toxunmaq istəyirəm. 44 günlük Vətən müharibəsi, ondan sonra birgünlük antiterror tədbirləri və onun nəticələri açıq şəkildə göstərdi ki, əgər bir sıra dövlətlər yaşadığımız Cənubi Qafqazda hegemonluq uğrunda mübarizədə erməni faktorundan istifadə etməsəydi, biz zaman-zaman bu qədər dağıntılara, humanitar fəlakətlərə məruz qalmazdıq. Azərbaycanın əzəli torpaqlarında erməni şovinist dairələri nə karədir ki, dövlət qura bilərdi, ərazisini 9,8 min kvadrat kilometrdən 30 min kvadrat kilometrə çatdırardı, yəni ərazisini 3 dəfə artırardı. Bu, azmış kimi Azərbaycan ərazisinin 20 faizini işğal edərdi. Bu da azmış kimi hələ Bakıya qədər gəlib çıxacağını, üzr istəyirəm, ifadəmə görə, həyasızcasına deyə bilərdi. Bax, bu Brüssel görüşünün məzmunu bilavasitə onu göstərir ki, erməni qüvvələrinin, erməni revanşizminin, faşizminin arxasında duran qüvvələr bundan nəticə çıxarmaq əvəzinə, yeni oyunlar açırlar. Azərbaycan Prezidentinin Amerika Birləşmiş Ştatlarının dövlət katibi ilə telefon danışıqları zamanı ortaya qoyduğu

konkret ifadələrdə açıq şəkildə göstərilir ki, bu, regionumuzda sülhə, əmin-amanlığa xidmət edən bir görüş deyil. Bu, Türkiyənin bəyanatında da öz əksini tapıb. Biz də Türkiyənin bu bəyanatını dəstəkləyirik.

Əgər Avropa İttifaqının, Amerika Birləşmiş Ştatlarının elə böyük vəsaitləri varsa, Ermənistan Azərbaycana 100 milyard dollarla ölçülən ziyanlar vurub. O vəsaiti həmin ziyanların ödənilməsinə xərcləsinlər. Əgər, doğrudan da, Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları sülh məsələsində səmimidirlərsə, onda Azərbaycanın həyata keçirməyə başladığı I Böyük Qayıdış proqramına paralel surətdə Cənubi Qafqazda əmin-amanlığa xidmət edən bir proqram hazırlayıb həyata keçirsinlər, əgər həmin qüvvələr səmimidirlərsə, dəqiq mina xəritələrini Azərbaycana təqdim etsinlər, əgər səmimidirlərsə, “Qafqaz evi” modelinin reallaşmasına fikirdə, sözdə, əməldə riayət etsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, əziz qonaqlar. Hesab edirəm ki, bu gün Azərbaycan üçün ən aktual mövzulardan biri iki universitetin yaradılması ilə bağlı məsələdir: Qarabağ Universiteti və Türkiyə–Azərbaycan Universiteti. Bizə hansı modeldə universitet lazımdır? Birinci bu suala cavab verməliyik. Rəsmi müvafiq icra hakimiyyəti orqanının açıqladığı izahatlarda hələ də aydın bir strategiya görünmür. Biz Türkiyə–Azərbaycan Universitetini necə təsəvvür eləyirik? Mən hesab edirəm ki, Azərbaycanda bu gün daha çox texniki universitetə, yaxud informasiya-kommunikasiya texnologiyalarına aid olan ixtisasları öyrədən universitetə ehtiyac var. Bu universitetin yaradılması Bakı şəhərində nəzərdə tutulur. Bakı şəhərində necə, hansı

ərazidə, hansı kampus yaratmaq mümkündür? Nümunə üçün deyim ki, Kutaisidə yaradılan universitet 170 hektar ərazini əhatə edir və 3 milyarddan artıq büdcəsi formalaşıb. Biz yaratdığımız universiteti təkcə Türkiyə ilə qardaşlığımızı göstərmə naminə etməməliyik, həm də səviyyəli bir universitet yaratmalıyıq. Ona görə də Türkiyə–Azərbaycan Texniki Universitetinin yaradılması məsələsinə baxılmalıdır.

Sentyabrın 15-dən dərslər başlayır. Hələ ki, bina məsələsi öz həllini tapmayıb, bunun üzərində düşünmək lazımdır.

Mənə elə gəlir ki, biz regionlara universiteti yayma barədə düşünməliyik. Bir universitet həm də bir regionun inkişafı deməkdir. Bakıdan Qazaxa qədər 500 kilometr məsafədir. Biz 200, ya 150 kilometr kənarda hansısa regionda bunu yaratsaq və 150, 170, 200 hektar ərazini ona kampus üçün ayırsaq, bu universitetin qazancı, həm də ölkənin inkişafı ola bilər.

Eyni zamanda, Qarabağ universiteti ilə bağlı planlar da hələ aydın deyil. Bunlar elmi ictimaiyyət tərəfindən geniş müzakirə olunmalıdır. Əgər biz formal olaraq ənənəvi universitet modelini tətbiq etməyə başlasaq, Qarabağın adına layiq universitet yaratmaqda çətinlik çəkəcəyik. Məsələn, orada niyə biz kiçik Silikon Vadisi formatında bir universitet yaratmayaq? Fərqli bir universitet yaratmalıyıq ki, orada dünyanın başqa ölkələrindən də gəlib təhsil almaq imkanları olsun. O baxımdan da mən bu məsələlərin, bütövlükdə, daha çox müzakirəsinin tərəfdarıyam ki, addım atılanda cəmiyyətin, elmi ictimaiyyətin fikirləri mütləq nəzərə alınmalıdır.

Biz həm də bura xarici ölkələrdən mütəxəssislərin cəlb edilməsi üçün kifayət qədər yetkin bir büdcəyə sahib

olmalıyıq ki, bu problemi daha səviyyəli, keyfiyyətli şəkildə həll edə bilək. O baxımdan da mən universitet məsələsini bu gün ən vacib prioritet məsələlərdən biri hesab edirəm. Düşünürəm ki, bu iki universitet modelində biz əgər uğur qazana bilsək, bu, Azərbaycan təhsilini, ali təhsilimizi xeyli irəli apara biləcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Ancaq mən düşünürəm ki, Sizin qeyd etdiyiniz o məqamlar ki var, bəziləri ilə bağlı artıq qərar da verilib, texniki məsələlər, texniki ixtisaslar və sair. Yenə də buna baxmaq lazımdır. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. Son günlər Ermənistan–Azərbaycan şərti sərhədində, xüsusilə Zəngəzur ərazisində hərbi qurğuların qurulması, texnikanın toplanması, təbii ki, Azərbaycanı narahat edir və Azərbaycan bu məsələyə cənab Prezident tərəfindən də, ictimaiyyətin nümayəndələri tərəfindən də öz münasibətini bildirib. Bu təxribatın, bu separatçılığın qarşısı çox cidd-cəhdlə alınacaqdır.

Amma bu məsələdə məni narahat edən İran İslam Respublikasının susqunluğudur. İran nədən susub? 44 günlük Vətən müharibəsi dövründə və ondan sonrakı dövrlərdə İran hər gün bəyanat verirdi, sərhədə gətirib qoşun yığmışdı, manevrlər edirdi, deyirdi ki, Zəngəzura daxil olmaq olmaz, İranın sərhədi pozulur. Malası qurumamış Qafanda gedib qastronomda ermənilərin müdafiəsi ilə əlaqədar konsulluq açırdı. Bu gün o əraziyə NATO-nun, Avropanın, ABŞ-ın kəşfiyyatçıları, terrorçuları yığışır, onların silahları gətirilir. Hindistandan gətirilən raketlər də bilavasitə Hind okeanı vasitəsilə İrana gəlir,

İran ərazisindən Ermənistana keçirilir. Hesab edirəm ki, İran bu məsələlərə görə cavab verməlidir. Əgər məsuliyyət daşıyırsa, bu addımı atmalıdır. Qeyd edirdi ki, "Arabeyi zəngi rəftəm", yəni döyüş arabalarımız, tanklarımız irəli getməlidir. Azərbaycanın sərhədinə gətirib yığmışdı. Bəs arabeyi zəngin haradadır? Niyə ortada yoxdur? Niyə cavab vermir? O, bilmir ki, o silahlar Azərbaycan üçün yığılmır ora, o silahlar elə İran üçün yığılır. Gələcəkdə İranın taleyini həll eləyəcək.

O azmış kimi, İran parlamentində, üzr istəyirəm, həpəndin biri ayağa durub deyir ki, Azərbaycandakı İsrail səfirliyini bombalamalıyıq. Birincisi, səfirliyi bombalamaq beynəlxalq hüquqa, insanlığa zidd olan bir hərəkətdir. İkincisi, İsrailin 150-dən artıq ölkədə səfirliyi var, elə gözünüz Azərbaycanı görür, bacarırsınızsa, gedin, Amerikadakı səfirliyə atın, nə bilim Rusiyadakı səfirliyə atın, digər ölkələrdəki, ərəb ölkələrində olan səfirliyə atın. Niyə siz Azərbaycandakı İsrail səfirliyini bombalamalısınız? Orada yaşayan azərbaycanlılar buna imkan verərlərmi ki, Azərbaycana qarşı hər hansı bir addım atasınız.

Odur ki, hər bir şəxs öz mövqeyini bildirməlidir. Biz nə qədər münasibətlərimizi yaxşılaşdırmaq istəyiriksə, bunlar o birisi tərəfə çəkirlər. Mən hesab edirəm ki, indi mövqelərin ortaya qoyulan vaxtıdır. Hər kəs də öz mövqeyini ortaya qoyur...

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Cənubi Qafqazda yeni düzən formalaşıb. Bu gün Brüsseldə keçirilən üçtərəfli görüş diskriminativ xarakter daşımaqla yanaşı, eyni zamanda, regional inklüzivliyin nəzərə

alınmadığı bir tədbirdir. Ümumiyyətlə, Cənubi Qafqazda sülhə töhfə vermək üçün inklüziv yanaşma çox vacibdir və bu baxımdan, təbii ki, Amerika Birləşmiş Ştatlarının, Ermənistanın və Avropa İttifaqının keçirdiyi üçtərəfli görüş birmənalı şəkildə Cənubi Qafqazda sülhə deyil, əslində, gərginliyin dərinləşməsinə xidmət göstərir.

Amma nəzərə almaq lazımdır ki, bu gün Cənubi Qafqazda nəinki iqtisadi inkişafın, bütövlükdə, sülh prosesinin drayveri Azərbaycandır. Son iki gündə həm Vaşinqtondan, həm də Brüsseldən Bakıya – cənab Prezidentə olan zənglər bir daha təsdiq edir ki, Qərb Azərbaycanın güclü mövqeyini qəbul edir. Amma bütün bunlarla yanaşı, əslində, bugünkü görüşün keçirilməsi deyil, həmin görüşün təxirə salınması Cənubi Qafqazda sülh prosesinə töhfə vermiş olardı. Nəzərə alsaq ki, inklüziv olmayan istənilən görüş Cənubi Qafqazda sülh prosesinə maneədir. Bu baxımdan, təbii ki, bu gün Brüsseldə təşkil ediləcək görüş birmənalı şəkildə Cənubi Qafqazda başlanan sülh prosesinə maneə olaraq qiymətləndirilməlidir. Xüsusən nəzərə almaq lazımdır ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərini bərpa edir və bu gün maliyyə dəstəyinə ehtiyacı olan tərəf Ermənistan deyil, Azərbaycandır. Çünki Azərbaycan Ermənistanın 30 illik işğal müddətində dağıtdığı əraziləri bərpa edir, yenidən həmin ərazilərdə vətəndaşların məskunlaşmasını həyata keçirir. Xüsusən nəzərə alsaq ki, dəymiş ziyanın məbləği 100 milyard dollardan artıqdır. Bu o deməkdir ki, əgər Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı Ermənistana dəstək olmaq istəyirsə, o zaman təzminatın verilməsinə dəstək olmalıdırlar. Onlar 30 illik işğal altında qalmış torpaqlarımızın daha qısa müddətdə bərpasına və yenidən qurulmasına dəstək olmalıdırlar ki,

məhz uzun müddət – 30 ildən artıq məcburi köçkün həyatı sürmüş vətəndaşlarımız daha qısa müddətdə həmin ərazilərə qayıtsınlar.

Bütün bu görüşlərə rəğmən Azərbaycan Şərqi Zəngəzur və Qarabağı yenidən qurur, bərpa edir. Bu, Cənubi Qafqazda yeni bir səhifədir və təbii, bu səhifəni yazan, yaradan Azərbaycandır, Azərbaycan rəhbəridir, Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Bu, Cənubi Qafqaz üçün həm də yeni bir dövrün başlanması deməkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycanın müasir hərb tarixinin ən önəmli və həlledici döyüşlərindən bir olan şanlı Aprel zəfərindən 8 il ötür. Həmin tarixdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı Cocuq Mərcanlı kəndini, Lələtəpə yüksəkliyini, Talış kəndi ətrafında yüksəklikləri və Goranboyun Gülüstan kəndini işğaldan azad etdi. Aprel döyüşləri 2020-ci ildə qələbəyə gedən yolun başlanğıcı idi. Məhz həmin günlərdə 2020-ci ildə əldə etdiyimiz zəfərin təməli qoyuldu, "güclü Ermənistan ordusu"nun mifi dağıdıldı. Azərbaycan Ordusu bu mifi dağıdaraq öz qələbəsini təmin etdi, eyni zamanda, "işğalla barışın, siz müharibə edə bilməzsiniz" deyənlərə layiqli cavab verdi.

Hesab edirəm ki, bu gün Ermənistan, Amerika Birləşmiş Ştatları, Avropa İttifaqının görüşünə də biz bu prizmadan yanaşmalıyıq. 30 il ərzində Azərbaycan torpaqlarının işğalı ilə bağlı heç bir ciddi addım atmayan, heç bir iş görməyən, heç bir görüş keçirməyən bu dövlətlər bu gün Ermənistanın təhlükəsizliyinin təmin olunması adı altında bu prosesə, bölgəyə müdaxilə etməyə çalışırlar. Bu gün

Azərbaycanla Ermənistan arasında sülh istiqamətində çox mühüm irəliləyişlərin baş verdiyi bir mərhələdə belə addımların atılmasının bir adı var. O da bölgəyə gələn sülhün qarşısını almaqdır.

Yeri gəlmişkən, burada digər diqqətçəkən bir məsələ ondan ibarətdir ki, – bu gün məndən əvvəl də həmkarlarımız qeyd etdi, – İranın bu məsələyə susqun münasibət göstərməsi. Əvvəlki dövrdə dəfələrcə Azərbaycanı bölgəyə kənar qüvvələrin gətirilməsində ittiham edən İran bu gün bu məsələyə heç bir reaksiya vermir. Görünən odur ki, bu məsələdə də sanki bu dövlətlərlə İran arasında bir razılaşma var və ona görə heç bir reaksiyanı görmürük. Əvvəlki dövrdə də Fransa, Ermənistan ilə İran arasında mövcud olmuş təmaslar da bu fikirləri söyləməyə imkan verir.

Eyni zamanda, yenidən Aprel döyüşlərinə qayıdaraq onu qeyd etmək istəyirəm ki, Aprel döyüşləri bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı heç zaman işğalla barışmayacaq, torpaqlarının azad olunması üçün lazım olan bütün addımları atacaq.

Cocuq Mərcanlı işğaldan azad olunduqdan sonra orada qısa müddətdə məscid inşa olundu, tibb məntəqəsi yaradıldı və ən qısa zamanda bizim insanlarımız ora köçürüldü.

Çıxışımın sonunda Aprel döyüşlərinin və döyüşçülərinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə abidənin qoyulmasını, eyni zamanda, Cocuq Mərcanlıda inşa olunan muzeyin ən qısa vaxtda fəaliyyətə başlamasını təklif edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Cəfərov. Buyurun.

**M.Cəfərov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hazırda Cənubi Qafqazda yaşanan geosiyasi qarşıdurmanın arxasında Ermənistanın xarici siyasətdəki mövqesizliyi dayanır. Tarix boyu regionda marağı olan

dövlətlərin oyuncağına çevrilən Ermənistanın tutduğu bu siyasi xətt həm Xəzəryanı bölgəni, həm də Orta Asiyanı yeni geosiyasi savaşın poliqonuna çevirə bilər. Çünki Cənubi Qafqaz Xəzəryanı bölgənin və Orta Asiyanın əsas geosiyasi giriş qapısı sayılır. Bu səbəbdən də Ermənistanın bu təhlükəli siyasi oyunu bir çox bölgədə yeni savaş cəbhələrinin açılmasına şərait yaradacaqdır. Buna görə də bu təhlükəyə qarşı təkcə Azərbaycan deyil, qeyd etdiyim region dövlətləri də mübarizə aparmalıdırlar.

Bu gün Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və ABŞ-ın dövlət katibi Antoni Blinken Brüsseldə görüşəcəklər. Düşünürəm ki, bu görüş Cənubi Qafqazda siyasi tarazlığa ciddi şəkildə təsir edə bilər. Çünki bu ölkələrin Ermənistana hərbi yardım göstərmək planları var və bu da əlavə narahatlıq doğurur, regionda sülh quruculuğu səylərinə ciddi xələl gətirir. ABŞ-ın hərbi və xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən və Vaqner üslubunda fəaliyyət göstərən bir sıra şirkətlər artıq Ermənistanda təlimlərə başlayıblar. Xüsusilə Ursula Fon der Lyayenin simasında Avropa İttifaqının da bu prosesə qoşulması kollektiv Qərb tərəfindən Azərbaycana qarşı siyasət yürüdüldüyünü göstərir. Bu görüş bunun bariz nümunəsidir. Bu görüş həm də Qərb–Rusiya savaşının növbəti bir cəbhəsidir. Son vaxtlar Rusiya rəsmilərinin bəyanatları da bunu söyləməyə əsas verir. Bu savaşda əsas dayaq faktoru məhz Azərbaycan və Ermənistan arasındakı sülh prosesidir.

Proseslərin gedişatı onu deməyə əsas verir ki, Ermənistan özünü ikinci Qərb–Rusiya qarşıdurmasının poliqonuna çevirə bilər. Bu isə bölgənin və Azərbaycanın maraqlarına tamamilə ziddir. Ermənistanın regionda Qərb–Rusiya

qarşıdurmasında yeni cəbhə açmasını, bölgədə sülhə təhdid yaratmasını Azərbaycan sakit qarşılaya bilməz. Dövlətimiz xalqımızın sabitliyini, torpaqlarımızın suverenliyini qoruyacaqdır. Bütün bu proseslərin Ermənistanın və müttəfiqlərinin gözlədiyi nəticələri verməyəcəyi şübhəsizdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, əziz qonaqlar. Mən bu məsələni dörd ildir ki, deyirəm, həllini tapmır və bunu da aidiyyəti qurumun yarıtmaz fəaliyyəti kimi dəyərləndirirəm. Birinci Qarabağ müharibəsində şəhid verən yüzlərcə ailə hələ də evlə təmin edilməyib. Onların xeyli hissəsi ilə görüşmüşəm. Son bir ildə görüşdüyüm şəhid ata və analarımızın bir neçəsi evlə təmin edilmədən dünyasını dəyişib.

Onların 70-87 arası yaşları var. Xəstə, əldən düşmüş, qocalıqdan belləri bükülmüş, bir çoxları yatağa məhkum olmuş şəhid ata və analarıdır. Ağrılı cəhət budur ki, bu şəxslər dünyasını dəyişəndən sonra ailə ev almaq hüququnu, şəhid statusunu itirir. Belə çıxır ki, Sosial Xidmətlər Agentliyi gözləyir ki, onlar dünyasını dəyişsinlər, bu agentliyin də canı evlə təmin etməkdən qurtarsın. Başa düşmürəm, niyə ən asan və həm də humanizmdən kənar yolu seçirlər. Axı, onların evlə təminatına bütün maliyyə imkanları da var.

Yenə bu günlərdə İmişli rayonundan bir şəhid anasının videosu yayılıb. Qoy, zəhmət çəkib onun altında yazılan minlərcə şərhləri oxuyub məsuliyyət hissi keçirsinlər, həm də görsünlər ki, yarıtmaz fəaliyyətləri nəticəsində dövlətin hansı şəxsləri söyülür, təhqir edilir.

Bütün Azərbaycan boyu yaşı 60-ı ötmüş şəhid ata və anaları təxirə salınmadan evlə təmin olunmalıdırlar.

Cavanlar gözləyə bilərlər, amma onların həyatı bitib, heç olmasa, son günlərini normal vəziyyətdə yaşasınlar. Həm də dünyalarını dəyişəndə bu dünyadan narazı getməsinlər. Vallah onların ah-naləsindən ziyan çəkənlərdən olarıq.

Söylədiklərimin nəticəsi budur ki, yaşlı, xəstə şəhid ata və analarının evlə təminatı ön plana salınmalı, dövlət onlar qarşısında olan borcunu onlar dünyasını dəyişmədən yerinə yetirməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. ABŞ və Qərbin siyasi dairələrində riyakarlıq kabusu dolaşır. NATO-nun keçmiş baş katibi olmuş Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın dostları şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış 21 mart 2024-cü il tarixli "Avropa İttifaqı–Ermənistan münasibətlərinin dərinləşməsi, Ermənistanda daha çox Avropa, Avropada daha çox Ermənistan" adlı hesabatda yer alan Azərbaycan əleyhinə əsassız iddialar qətiyyətlə pislənməlidir. Gəlin Rasmussenin şəxsiyyətinin ikiləşməsinə diqqət edək. Torpaqlarımız işğal altında olanda Rasmussenin Azərbaycan Prezidenti cənab İlham Əliyevlə iki görüşündə səsləndirdiyi fikirlər. 2012-ci il fevralın 15-dəki görüşdən sitat: "Bizim bir çox siyasi prioritetlərimiz və təhlükəsizlik sahəsində maraqlarımız üst-üstə düşür. Uzun illər ərzində əməkdaşlığımızı və dialoqumuzu qurmuşuq. Münasibətlərimiz Avropa və Avroatlantik təhlükəsizliyinə töhfə verir. Əlaqələrimizi eyni qaydada inkişaf etdirmək əzmindəyik".

2014-cü il yanvarın 6-dakı ikinci görüşdən sitat: "Bu gün keçirdiyimiz görüş NATO-nun və sizin tərəfdaşlığınıza olan sadiqliyinizi əks etdirir. Bu o deməkdir ki, biz Cənubi Qafqaz regionuna sadiqik və sadiq qalacağıq.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi, Qafqazda isə sülh və sabitlik üçün həyati əhəmiyyət kəsb edən ölkədir. Eyni zamanda, Azərbaycan NATO üçün vacib və əhəmiyyətli tərəfdaşdır".

Rasmussen 10 il bundan öncə sülh və sabitlikdən danışırdı. İndi isə bədnam hərəkətləri ilə sülh sazişinin imzalanmasına əngəllər törədir. Azərbaycanlıları doğma torpaqlarından vəhşicəsinə çıxaran, Xocalıda, Meşəlidə – bütün işğal etdikləri ərazilərimizdə qan donduran soyqırımları törətmiş Ermənistana Rasmussenlər və Borellər icad etdikləri "Ermənistanda daha çox Avropa, Avropada daha çox Ermənistan" şüarı altında qahmar çıxırlarsa, onda sual yaranır. Genosid, ekosid, urvisid, terrorizm nə vaxtdan Avropa dəyərlərinə çevrilib? Bəs maarifçilik, renessans, insan azadlıqları hara getdi?

Azərbaycan Prezidentinin köməkçisi hörmətli Hikmət Hacıyev Rasmussenə qısa və çox mənalı cavab verib. Sitat: "Anders Foq Rasmussen hesabatına ödənişi əlavə etməyi unudub. Pullar danışır".

Məşhur Britaniya ensiklopediyasında terrorizm anlayışına baxdım. Yalnız 2001-ci ilin 11 sentyabr terror hadisəsi haqqında geniş məlumat verilir. Bu barədə yüzlərcə kitab və minlərcə məqalə yazılıb. Antiterror əməliyyatı barədə də həmçinin. Antiterror nümunəsi var və biz də 30 illik terrora və vəhşiliyə birgünlük antiterror əməliyyatı ilə cavab verdik. Dünyada baş verən terror hadisələri göstərir ki, Azərbaycan terror kimi vəhşi bir aktın kökünün kəsilməsi üçün də bəşəriyyətə öz töhfəsini verib. Mina terroru isə hələ qalmaqdadır. Bu işə isə dəstək durmaq...

**Sədrlik edən.** Sağ olun. Hörmətli Fəzail müəllim söz istədi. Fəzail müəllim, buyurun.

**F.İbrahimli.** Təşəkkür edirəm. Hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. Mən Brüssel görüşü ilə bağlı burada səslənən və mətbuatda gedən bəzi məqamları sizinlə bölüşmək istəyirəm. Görüşün tarixi elan edildikdən sonra Ermənistanda, Rusiyada və bizdə çox vahiməli yazılar getdi, narahatlıq doğuran fikirlər söyləndi. Sanki bu görüş dünyanı məhvərindən qoparacaq, Ermənistanı xoşbəxt edəcək, bizim narahatlığımız başlanacaq və sair. Sual olunur: məqsəd Cənubi Qafqazda yerləşməkdirsə, bir dövləti digər müharibəyə sövq etmək nə dərəcə rahatlığı reallaşdıra bilər? Bu, birinci. İkincisi, Cənubi Qafqazda möhkəmlənmək üçün Azərbaycanla münasibət yerində olmasa, heç bir şey baş tuta bilməz. İqtisadi qüdrət Azərbaycanda, siyasi qətiyyət Azərbaycanda, xalqla hakimiyyətin birliyi Azərbaycanda. Üçüncüsü, mən sual verirəm, Ermənistan Azərbaycanın forpostudur ki, Azərbaycan bu qədər narahat ola? Haranın forpostudur? Rusiyanın. Ukrayna cəbhəsində uğur əldə edə bilməyən ABŞ və Avropa ikinci bir cəbhənin Azərbaycanla deyil... Azərbaycanın bura qəti dəxli yoxdur. Azərbaycan öz sərhədlərini azad edib, sülh istəyir. Tutaq ki, Azərbaycanla müharibə etdi. Bu, Avropa dövlətlərinə nə qazandıra bilər? Çox sadə bir məntiqdir. Burada məqsəd Rusiya üçün ikinci cəbhə açmaqdır. Orada ilk variantdan heç bir tərəf uğur qazana bilmədi. Rusiya deyirdi, çox qısa bir müddətdə mən Ukraynanı fəth edəcəyəm, yalan çıxdı. Amerika Birləşmiş Ştatları və Avropa deyirdi, sanksiyalarla Rusiyanı boğacağam, nəticəsi yoxdur. Hər iki tərəf çox çətin duruma düşüb.

Erməni dövlətini yaradan Rusiya olub. Bilirsiniz də köçürüb, dövlət yaradıb, yarandığı gündən də onu himayə edir, bütün xərclərini çəkir və yaşadır. İndi onu bunun

əlindən almaq istəyirlər. Ona görə də vahiməli fikirlər ki, ay aman, orada görüş keçirilir. Heç bir şey olmayacaq. Hələ bu görüşün nəticələrinin ola bilsin, bir uğursuz sonluğu olsun. Bunlar hamısı ideoloji təbliğatdır.

Məsələnin ikinci tərəfi. Hindistandan silahlar gəlir, başqa yerlərdən silah satılır. Bunlar havayı olmur. ABŞ-da Baydeni hərbi sənaye kompleksi hakimiyyətə gətirib. Hərbi sənaye kompleksinin hakimiyyətə gətirdiyi dövlət başçısı müharibə törətməlidir, pul qazanmalıdır ki, silahları olsun.

Türkiyə amili var, Şuşa Bəyannaməsi var. Necə ola bilər ki, gəlib oturur burada, deyir, vur Azərbaycanı, Türkiyə də oradan baxır. Türkiyə də NATO blokunun üzvüdür. Ona görə də bu məsələlərdə təbliğatımız ona yönəlməməlidir ki, ay aman, Xandostu amandır, qoyma, gəldi. Heç bir şey olmayacaq. Bu görüşün xüsusi nəticələri olmayacaq. Xalqa da hər hansı bir müsahibədə müsbət emosiyalarla bağlı olan fikir aşılamaq lazımdır, həqiqəti demək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fəzail müəllim. Düşünürəm ki, Azərbaycan amili tək Cənubi Qafqazda deyil, artıq bütün dünyada məlumdur. Çox sağ olun.

Hörmətli həmkarlar, hamınıza təşəkkür edirəm və biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 22 məsələni müzakirə etməliyik və gündəliyin ilk 8 məsələsi Milli Məclisin qərar layihələridir.

Biz gündəliyin 1-ci məsələsinə keçirik. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi müzakirəyə təqdim olunur.

Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hesab edirəm ki, bu gün elə 30 dəqiqə ərzində söhbətlərin içərisində olan mövzulara cavablardan biri də məhz elə bu qərar layihəsidir. Ona görə ki, Azərbaycana, türk dünyasına müxtəlif təzyiqlər olacaq, ancaq biz güclüyük, biz birik. Heç də təsadüfi deyil ki, Azərbaycan və Türkiyə bu gün Brüsseldə keçirilən iclasa öz münasibətlərini konkret olaraq xarici işlər nazirlərinin bəyanatları ilə ifadə ediblər. Ona görə bizim yolumuz türk dünyasıdır.

Bildiyiniz kimi, fevralın 14-də cənab Prezident burada, bu zalda andiçmə mərasimində "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" fikirlərini söyləmişdir. Bəli, bu, belədir. Biz türk dövlətləri ilə əlaqələri getdikcə genişləndiririk.

Bu nöqteyi-nəzərdən Milli Məclisə təqdim olunmuş qərar layihəsi həddindən artıq vacibdir və birbaşa türk dünyasının, türk birliyinin daha da genişləndirilməsinə xidmət edən və ən əsası, möhkəm, birgə, hər bir çağırışlara cavab vermək imkanına malik olan mühüm bir qərar layihəsidir.

Hörmətli həmkarlar, siz çox yaxşı xatırlayırsınız ki, 2021-ci ildə, Sahibə xanım, birbaşa Sizin göstərişiniz əsasında böyük bir nümayəndə heyəti rəsmi olaraq ilk dəfə Şimali Kipr Türk Cümhuriyyətinə səfər etmişdi. Ondan öncə də əlaqələrimiz var idi. Ancaq parlament

səviyyəsində ilk rəsmi səfəri 2021-ci ildə həyata keçirdik və orada geniş söhbətlər, görüşlər, əlaqələr yaratdıq. Həmin o səfər çərçivəsində bizim parlamentdə dostluq qrupunun yaradılması ilə bağlı söhbətlər artıq açılmışdı. Bu, münasibətlərin inkişafı heç də təsadüfi deyildir. Üstündən cəmi bir il keçəndən sonra, 2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənd iclasında – Özbəkistanda IX Zirvə Toplantısında Şimali Kipr Türk Cümhuriyyətinə müşahidəçi statusu verilmişdir. Bu, tarixi bir qərardır və heç kim üçün sirr deyil ki, bu, Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin birbaşa dəstəyi və fəaliyyəti nəticəsində əldə olunmuş bir qərar kimi qiymətləndirilmişdir. Üstündən bir il də keçəndən sonra – 2023-cü ildə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti cənab Ersin Tatar geniş tərkibli nümayəndə heyəti ilə Azərbaycan Respublikasına səfər etmişdir. İki ölkə prezidentləri arasında qardaşlıq münasibətlərinin, dostluq əlaqələrinin genişləndirilməsi, iqtisadi məsələlər müzakirə olunmuşdur.

Bu əlaqələr həddindən artıq çox vacibdir. Ona görə ki, Qərbin Şimali Kipr Türk Cümhuriyyətinə münasibəti sanki ikili standartların nümunəsi kimi qiymətləndirilə bilər. Biz türk dünyasına və bizə qarşı olan bu ikili standartların nə olduğunu çox yaxşı bilirik. Yaddan çıxarmamışıq ki, Annan planına əsasən Şimali Kipr Türk Cümhuriyyətinin vətəndaşları birləşməyə “hə” demişdilər və bu “hə” fikrinə məntiqli cavab tapa bilməyən Qərb Kipr yunanlarına “yox” dedizdirmişdi. Bundan sonra isə “yaxşı, biz sizi Avropa Birliyinə qəbul edəcəyik”, - demişdilər. “Hə” sözünə onda Avropa Birliyi “yox” demişdi. “Hə” deyilən siyasətlərə “yox”, “yox” deyilən siyasətlərə “hə” demək Qərbin xüsusiyyətidir, biz bunu

bilirik. Bir tərəfdən, Brüsseldə görüş keçirirlər, o biri tərəfdən, Azərbaycan Respublikasının Prezidentinə zəng edirlər. Bir tərəfdən, hansısa əlaqələr qururlar, o biri tərəfdən, Azərbaycanın reallığını qəbul etmirlər. Ona görə bizə bəllidir, biz bilirik, bunun arxasında nələr var. Bu səbəbdən bizim yolumuz türk dünyasını, türk ailəsini möhkəmləndirməkdir.

Bu gün isə illər boyu gözlədiyimiz məsələnin həll olunması – parlamentdə dostluq qrupunun yaradılması məsələsi gündəmə gəlib. Sevindirici haldır ki, dostluq qrupunun rəhbəri olmaq üçün hörmətli deputatımız, dostumuz Cavanşir Feyziyev təklif olunur.

Cavanşir Feyziyev xüsusi bacarıqlara malik olan deputatımızdır, dostumuzdur. O, uzun illər müxtəlif dostluq qruplarına rəhbərlik edib. Beynəlxalq təşkilatlarda böyük təcrübəyə malik olan bir insandır. Ən əsası Cavanşir müəllim türk dünyasının araşdırılması ilə, o haqda kitabların yazılması ilə məşğuldur. Misal üçün, onun 2013-cü ildə yazdığı "Türk dünyasının birliyi, qlobal inteqrasiya, Avrasiya modeli" kitabı türk, qazax, qırğız, boşnaq, rus və macar dillərinə tərcümə olunub və geniş şəkildə yayılmışdır. 2017-ci ildə isə türk dünyası ilə bağlı beşcildliyi nəşrdən çıxmışdır.

Hörmətli həmkarlar, inanıram ki, bu gün Milli Məclisə təqdim olunan qərar layihəsi əlaqələrimizin inkişaf etdirilməsinə daha böyük töhfələr verəcəkdir. Türk dünyası yeni mərhələyə yüksəlir. Mən də öz növbəmdə sizi bu qərarın dəstəklənməsinə çağırıram. Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupuna gələcək fəaliyyətində uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, yazılanlar var. Eyni zamanda, təklif var ki, səsə qoyaq. Mən düşünürəm ki, bu məsələ ciddi məsələdir. Əgər təkid edən varsa, mən söz verəcəyəm. Fəzail müəllim və Musa müəllim söz istəyir. Mən onda 2 nəfərə söz verəcəyəm. Hikmət müəllim də. Əgər üç nəfər söz istəyirsə, mən onda dördüncüyə də söz verəcəyəm. 4 nəfər çıxış edəcək. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Səməd müəllimə dərin təşəkkürümü bildirirəm ki, kifayət qədər geniş və əhatəli şəkildə təqdimatını etdi və bizim Şimali Kipr Türk Cümhuriyyəti ilə əlaqələrimizin tarixçəsi üzərində dayandı, onun vermiş olduğu töhfələri qiymətləndirdi. Eyni zamanda, yeni yaradılacaq Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi hörmətli həmkarımız Cavanşir Feyziyev haqqında da olanları, həqiqətləri yüksək səviyyədə diqqətimizə çatdırdı.

Mən düşünürəm ki, Sahibə xanım, bu, ilk növbədə Sizin xidmətinizdir. Belə bir işçi qrupunun yaradılmasına görə mən Sizi alqışlayıram. Əslində, həm də türk dövlətlərinin, ölkə Prezidentinin qarşıya qoyduğu və hədəflədiyi bugünkü vəzifələrin məntiqinə uyğun olaraq atmış olduğumuz bu addım, mən tamamilə əminəm ki, iki ölkə arasında, yəni Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında münasibətlərin daha da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Əvvəlcədən deyirəm ki, əgər qarşıdan gələn parlament seçkilərində bir daha parlamentə seçilmək qismətimiz olsa, xahiş edirəm, məni həmin işçi qrupunun tərkibində nəzərə alasınız.

Bununla bərabər, hörmətli xanım sədr, burada Ermənistanla bağlı fərqli fikirlər söylənildi. Buna, sadəcə, biganə qalmaq mümkün deyil. Xüsusən hörmətli həmkarım Fəzail İbrahimlinin çıxışı məndə kifayət qədər narahatlıq yaratdı. Mən ondan fərqli düşüncə sahibiyəm. Bu baxımdan hazırladığım çıxışı sizin diqqətinizə çatdırmaq istəyirəm.

Ermənistan müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz tərəfindən darmadağın edildikdən sonra da bütün hiyləgərliyini, dövlətlərarası vurnuxub baş əydiyi yeni sahiblərinə hər şeyini qurban verməyə hazır olduğunu, Rusiyanın forpostluğundan çıxıb Qərbin forpostuna çevrilməyini, milli mentalitetindən irəli gələn kölə xarakterini və faşist düşüncələrini bütün gücü ilə ortaya qoymaqla regionda olduqca təhlükəli vəziyyət yaratmaqdadır.

Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı və Ermənistan tərəfindən uzun müddətdir ki, hazırlanan və bu gün keçirilməsi nəzərdə tutulan üçtərəfli görüş mahiyyətcə regionda sülhün yaranmasına xidmət etmir. Bu görüş faşist ölkəsinin Azərbaycana, bütövlükdə, regionda sülhün və əməkdaşlığın yaranmasına qarşı yönələn, Ermənistanın pozucu və revanşist mövqeyini stimullaşdıran və gücləndirən, onun sürətlə silahlanmasına hüquqi, siyasi əsaslar yaradan avantürist bir addımdır. Bu cür görüşlər, eyni zamanda, Azərbaycanla şərti sərhəd boyu Avropa İttifaqının mandatı ilə kəşfiyyatçı qrupları yerləşdirib onlardan gələcək hərbi əməliyyatlar üçün ölkəmizin silahlı qüvvələri haqqında informasiyalar toplayan, Qərbdən, Hindistandan, İrandan güzəştli şərtlərlə müasir hücum silahları almaqda israrlı olan Paşinyan artıq ruhunda yaşatdığı qisasçılıq və revanşist mövqeyini açıq şəkildə nümayiş etdirərək Azərbaycana qarşı ərazi iddialarına şübhə yeri qoymur.

Hüquqi normativ aktlarında Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarından rəsmi şəkildə imtina etmək, regionda sülhə və əməkdaşlığa töhfə vermək əvəzinə, Qərbin güc mərkəzlərinin yaratdığı çevrədə ermənisayağı rəqs edən Paşinyan və onun komandası artıq Köçəryan və Sarkisyan qədər ölkəmiz, həm də region üçün ciddi təhlükə yaratmaqdadır.

4 ildir ki, Azərbaycanın və Türkiyənin regionda əməkdaşlığın və təhlükəsizliyin təmin olunmasına xidmət edən sülh niyyətlərini bloklayan Ermənistan təcavüzkar məqsədlərini açıq və gizli şəkildə davam etdirir. O, işğal altında qalan 8 kəndimizi qaytarmaq əvəzinə, bütün şərti sərhəd boyu sınıq-salxaq qoşun və hərbi texnikasını cəmləşdirərək təxribatlar törətməkdədir. Belə bir ölkə ilə dinc qonşuluq şəraitində yaşamaq, sadəcə, mümkünsüz görünür. Nə qədər ki, uşaqdan qocaya, qadından kişiyə, iqtidardan müxalifətə qədər türkün qanına susayan bu vandal ölkə var, biz barmağımızı tətikdən çəkməməli, Ermənistanın təxribatçılıq və işğalçılıq niyyətlərinə, hərəkətlərinə son və həlledici zərbəni vurmaq üçün hər an hazır olmalıyıq. Bu zərbənin endirilməsinin məsuliyyətini isə iqtidarlı, müxalifətli Ermənistan və onu bu gün silahlandıran, himayə edən dövlətlər daşıyacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən təklif edirəm, 5 dəqiqəyə keçək. Razısınız? Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Bu gün Azərbaycan parlamentarizm tarixinin ən parlaq səhifələrindən biridir. Bu gün müzakirə edilən məsələ, qəbul edəcəyimiz qərar təkcə Azərbaycanla bağlı deyil, bütün türk dünyasının bu gününə və gələcəyinə təsir edən bir qərar olacaqdır.

Azərbaycan bütün türk dünyasına böyük bir nümunə göstərir. Sizin sədrliyinizlə, hörmətli Sahibə xanım, tariximizdə ilk dəfə olaraq Şimali Kipr Türk Cümhuriyyətinin parlamenti ilə əlaqələr üzrə işçi qrupu yaradılır. Bununla Azərbaycan parlamenti türk dünyasına və digər türk dünyası parlamentlərinə bir örnəkdir. Eyni zamanda, bir daha göstərir ki, cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi, bizim ailəmiz türk dünyasıdır. Hesab edirəm ki, bu qərar türk dünyasının qarşısında yeni üfüqlər açacaq və Azərbaycan gələcəkdə Şimali Kipr Türk Cümhuriyyətinin qurulmasında öndərlik edəcək.

İcazənizlə, bir məsələyə münasibət bildirmək istərdim. Bu gün qəbul edəcəyimiz qərar, məncə, daha geniş, əhatəlidir. Şimali Kipr Türk Cümhuriyyətinə Avropa İttifaqında münasibətin necə olduğunu siz çox gözəl bilirsiniz. Bugünkü üçtərəfli görüşü təhlil edərkən, məncə, çox sadə və primitiv yanaşmaya ehtiyac yoxdur. Onun hansı ölkəyə qarşı yönəldiyini hamı bilir. Əgər onun təşkilatçıları deyirlərsə ki, bu iqtisadi yardım mənası daşıyır, mən bir nümunə gətirmək istəyirəm. Heç bir iqtisadi yardım siyasi məqsəd daşımadan edilməz. Bu, hansı ölkəyə qarşı yönəldilir, bu, məlumdur, bunu orta məktəb şagirdi də bilir. Amma 1947-ci ildə ilk dəfə Trumen doktrinasına, 1948-ci ildə Marşal planına uyğun olaraq yardımlar edildi. Bunlar bərpa, dirçəliş, iqtisadi yardımlardır. Nəticəsi nədir? Mənə elə gəlir ki, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd müəllim bir cümlə ilə onu çox dərin ifadə etdi. Ona görə mən hesab edirəm ki, biz üçtərəfli görüşə çox sadə yanaşmamalıyıq, bir neçə onillər sonra bizə qarşı böyük təhdidlər törədəcəyini indidən görməliyik.

Diqqətinizə görə təşəkkür edirəm. Qərar layihəsinə səs verəcəyəm. Hesab edirəm ki, işçi qrupunun rəhbəri seçilmək üçün təqdim olunan çox hörmətli Cavanşir müəllim Feyziyev həm bizim dəyərli alimimizdir, həm də türk dünyasını gözəl bilir. Uğurlar olsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, Azərbaycan Prezidenti bu tarixi binada andiçmə mərasimində tarixi bir çıxış etdi və dedi ki, bizim ailəmiz türk dünyasıdır. Azərbaycanın xarici siyasətinin əsas vektoru Türk Dövlətləri Təşkilatıdır. Mən təşəkkür edirəm ki, hörmətli Sahibə xanım, Sizin rəhbərliyiniz altında bu gün Azərbaycan Respublikasının Milli Məclisi Prezidentin bu çağırışına cavab verir, Quzey Kıprısla bağlı belə tarixi bir qərar qəbul edir.

Əlbəttə, Quzey Kıprıs Türk Cümhuriyyəti – elə belə də demək lazımdır. Çünki dövlət adları, ümumiyyətlə, adlar tərcümə olunmur. Biz Quzey Kıprısa Şimali Kipr deməklə, düşünürəm ki, dövlətin rəsmi adını bir növ təhrif etmiş oluruq. Ona görə mən Quzey Kıprıs Türk Cümhuriyyəti deyirəm.

Quzey Kıprıs türk dünyasının Ağ dənizdə olan incisidir, təhsil beşiyidir. Bu gün orada, məndə olan məlumata görə, təxminən 5 minə yaxın azərbaycanlı tələbə təhsil alır. Biz Quzey kıprıslı qardaşlarımızla ortaq taleyi yaşamışıq. Onlar da zaman-zaman eyni şəkildə azərbaycanlılar kimi soyqırımlarına, qırğınlara, məşəqqətlərə məhkum ediliblər. Amma bu gün öz iradələrini nümayiş etdirərək cümhuriyyət qurmağı bacarıblar.

Quzey Kıprıs Türk Cümhuriyyətinin əhalisi ilə azərbaycanlıların başqa bir ortaq keçmişi də var. Çünki qanuni Sultan Süleymanın demoqrafik siyasəti nəticəsində türklər

Konya Karamandan Kıprıs adasına məskunlaşdırılır. Eyni zamanda, yenə həmin sərəncamla Azərbaycanın Qarabağ bölgəsinə Karaman oğullarının övladları yerləşdiriliblər. Bu gün bizim Qarabağda olan Cocuq Mərcanlı, Xocalı, Xocavənd adları Anadolu ləhcəsindən Azərbaycana daşınan toponimlərdir və yaxud antroponimlərdir ki, Əfəndiyevlər və digər bu cür soyadlar da oradan gələn insanların bu günə qədər yaşatdığı canlı tarixdir. Elə ortaq ləhcəmizdə də "n" səsinin bariz tələffüz olunması bir daha Quzey Kıprıs  türkləri ilə Azərbaycan türkləri arasında dərin köklərin, dərin bağlılığın olmasının ifadəsidir.

Karaman oğullarının ən böyük şəxsiyyətlərindən biri Karamanoğlu Mehmet Bəyin ifadəsi yadıma düşür. Düşünürəm ki, bu gün onun da ruhu şaddır.  Karamanoğlu Mehmet Bəy hələ  XIII əsrdə bir fərman imzalayır ki, bu gündən sonra divanda, dərgahda, meydanda, məclisdə türkcə danışılacaqdır. Mən düşünürəm ki, XXI yüzildə türk xalqlarının öz milli maraqları ətrafında birləşdiyi belə tarixi bir mərhələdə Azərbaycan parlamentinin bu qərarı ən doğru qərardır. Artıq burada qeyd olunduğu kimi, hesab edirəm ki, digər türk cümhuriyyətlərinin parlamentləri üçün də bu, bir çağırış olmalıdır.

İşçi qrupunun rəhbərinə gəldikdə isə çox hörmətli Cavanşir müəllim Feyziyev əzəldən bəri milli maraqlarımız üçün, türk dünyasının milli gücünün səfərbər olunması üçün özünün intellektual enerjisini sərf etmiş və bu istiqamətdə çoxsaylı kitablar yazmış hörmətli həmkarımızdır. Mən onun kitablarının, demək olar ki, hamısının – türk dünyasının gələcəyi, strateji birliyi ilə bağlı kitablarının təqdimatlarında iştirak etmişəm. Düşünürəm ki, işçi qrupunun rəhbəri də çox düzgün müəyyənləşdirilmişdir.

Mən bu qərar layihəsinə səs verəcəyəm. Bir daha sizə təşəkkür edirəm ki, Azərbaycan Prezidentinin çağırışına dərhal cavab veririk. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Son çıxış Anar İsgəndərovundur. Buyurun.

**A.İsgəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, əziz qonaqlar. Bu gün, yəni aprel ayının bu günləri Azərbaycan xalqının taleyində və tarixində uğurlu günlərdən biridir. Düz 8 il bundan əvvəl ilk dəfə olaraq biz düşmən haqqında yaradılan mifi ləğv etdik və düşməni məğlub etdik. Dünya da gördü ki, Azərbaycan öz gücü hesabına torpaqlarını azad edəcək.

Bu gün bizim Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı müzakirəyə çıxardığımız məsələ tarixi bir məsələdir. Tale elə gətirib ki, bizimlə Kipr türkləri arasında çox böyük tarixi oxşarlıq var. Nə zaman ki Osmanlı güclü idi, Kipr türkləri də ən xoşbəxt günlərini yaşayırdılar. Nə zaman ki Türkiyə zəiflədi, ən ağır günlər onlara da nəsib oldu. Mənə qədər də deyildi – Kiprdə türklərə qarşı edilən soyqırımı dünyanın ən ağrılı, həm də XX əsrin 60-80-ci illərinin soyqırımı olub. Amma son nəticədə Kipr türkləri dərk etdilər, onlar bu mübarizədə öz haqq və hüquqlarını qorumaq üçün istiqlal savaşına başladılar və istəklərinə çatdılar.

Mən tarixi bir müqayisə aparmaq istəyirəm. Nə zaman ki Osmanlı çökəndə soyqırımına məruz qaldı, eyni ilə bizdə də 1905–1906-cı illərdə ən ağrılı günlər Qərbi Azərbaycanda oldu. 1918–1920-ci illərdə Fövqəladə Tədqiqat Komissiyasının sənədlərinə görə, ən ağrılı soyqırımı Qərbi Azərbaycanda olub. Çünki ehtiyacları çox idi, amma onlara kömək etmək mümkün olmadı.

Ən nəhayət, 1948–1953-cü və ötən əsrin 80-ci illərin-

dəki aqibət də məlumdur. Ona görə də birinci cümlədə dedik ki, bizimlə Kıprıs türkləri arasında çox böyük tarixi yaxınlıq var. Bu mənada, bu gün Azərbaycan dövləti, Azərbaycan hökuməti və Milli Məclis bu qərarı qəbul edirsə, bu, doğrudan da, vaxtında qəbul edilən qərardır.

Türk dünyası, türk birliyi bir daha dərk etdi ki, o, özü-özünü qorumalıdır, özü-özünə sahib olmalıdır. Tarix boyu Qərb heç bir zaman türk, müsəlman dövlətlərinə kömək etməyib, onların uğurlarına sevinməyib. Necə ki Mustafa Kamal Atatürk deyib: "Nə zaman ki Qərbin bir siyasi rəhbəri xəritənin qarşısına keçir, o görəndə ki, Bosfor və Dardanel onun deyil, köhnə Konstantinopol indi İstanbul-dur, həmin gün işə əsəbi gəlir". Bəli, bu gün qalib Azərbaycanın, Türkiyənin uğurunu görən Qərb sevinmir, "işə əsəbi gəlir". Qoy, gəlsin. Artıq nə Türkiyə Cümhuriyyəti, nə də Azərbaycan zəif dövlətlər deyil. Biz Quzey Kıprıs Türk Cümhuriyyətini də öz sıralarımıza daxil etməklə, mənə belə gəlir ki, uğurlu bir siyasətin bünövrəsini qoyuruq. Onsuz da XXI əsr türk dövlətlərinin əsridir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, məsələyə münasibət bildirin. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 7 məsələsi möhtərəm cənab Prezidentin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. Bu məsələlərə dair qərar layihələrinin hamısına Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti müvafiq məhkəmə instansiyalarına hakimlərin təyin edilməsi və tutduqları vəzifələrdən azad olunması ilə bağlı bir sıra məsələləri Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Dövlət başçısının təqdimatına əsasən hakim korpusunu təmsil edən 2 nəfərin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri, 1 nəfərin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi, həmçinin 10 hakimin Bakı, 2 hakimin Gəncə, 3 hakimin Sumqayıt, 3 hakimin Şəki və 4 hakimin Şirvan Apellyasiya məhkəmələrinin hakimləri təyin olunması nəzərdə tutulur. Həmçinin vəzifələrinin dəyişdirilməsi ilə bağlı 6 hakimin tutduqları vəzifədən azad olunması da təqdimatda öz əksini tapmışdır.

Hörmətli deputatlar, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı, bütövlükdə, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üçün fundamental əhəmiyyətə malik yol xəritəsi rolunu oynamışdır. Bu istiqamətdə ən son dövrdə atılan addımlar həm qanunvericilik, həm də institusional tədbirləri əhatə etmişdir.

Qeyd etdiklərim ilk növbədə ardıcıl formada məhkəmə hakimiyyətinin müstəqilliyinin, məhkəmələrin digər hakimiyyət qolları ilə münasibətlərində tarazlığın təmin edilməsindən ibarət olmuşdur. Bu sırada Məhkəmə-Hüquq Şurasının tərkibinin yeni səmərəli sistem əsasında formalaşması, hakimlərin özünüidarə təşkilatlarının rolunun artırılması, şuraya rəhbərliyin Ali Məhkəmənin sədrinə həvalə edilməsi xüsusi yer tutur.

Ayrıca olaraq bu yaxınlarda "Məhkəmələr və hakimlər haqqında" Qanuna edilmiş dəyişikliklər qeyd olunmalıdır. Mahiyyətinə görə Məhkəmə-Hüquq Şurasının rolunu möhkəmləndirən həmin dəyişikliklər məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsində xüsusi əhəmiyyət daşıyır.

Hörmətli deputatlar, müvafiq qərar layihələri və hakimlər barədə məlumatlar sizlərə təqdim edilib. Sənədlərə diqqət yetirəndə bəlli olur ki, tərəfimizdən əvvəlki müzakirələrdə səsləndirilən rəylər və təkliflər, məsələn, iş stajı ilə əlaqədar fikirlər Məhkəmə-Hüquq Şurası tərəfindən nəzərə alınmışdır.

Bir mühüm məsələni də sizlərin diqqətinə çatdırmaq istərdim. Məhkəmə sistemində müvafiq vəzifələrə irəli sürülən namizədlər mərhələli xarakter daşıyan çox ciddi yoxlama və qiymətləndirmə prosedurlarından keçmişlər. Belə bir əhəmiyyətli fəaliyyət Məhkəmə-Hüquq Şurasının müvafiq qərarı ilə təsdiq edilmiş "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"na əsasən həyata keçirilir və bir çox dəyərləndirmə meyarlarını özündə ehtiva edir. Bu meyarlar 3 məhkəmə instansiyası hakimləri üçün fərqlidir. Ancaq misal olaraq birinci instansiya hakimlərinin qiymətləndirilməsində hakimin icraatında olmuş materiallara kassasiya qaydasında baxılmasına dair statistik

məlumatlar, prosessual qanunvericiliyin tələblərinə riayət edilməsi, maddi hüquq normalarının düzgün tətbiq olunması, tərtib edilən sənədlərin – protokolların, bildirişlərin, məktubların, kargüzarlığın aparılmasına dair təlimata uyğunluğu, mövcud məhkəmə təcrübəsinə əməl edilməsi və sairə öz əksini tapmışdır.

Bunları xatırlatmaqda əsas məqsəd ondan ibarətdir ki, hər bir namizəd kompleks xarakter daşıyan qiymətləndirmə prosesindən keçirilib, onların fəaliyyəti müsbət qiymətləndirildikdən sonra bu və ya digər məhkəmə instansiyasında vəzifə tutmaq imkanı yaranır və müvafiq qaydada dövlət başçısına Məhkəmə-Hüquq Şurası tərəfindən təqdim edilir.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunan məsələlər üzrə müvafiq qərarların qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Səsə qoymaq təklifi var. Hamı razıdır? Onda mən qərar layihələrini bir-bir səsə qoyacağam. Hörmətli həmkarlar, xahiş edirəm, Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakiminin təyin edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsinə, xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsinə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi, sağ olun.

Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Nəhayət, hörmətli həmkarlar, xahiş edirəm, Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, mən yeni təyin edilmiş hakimlərin hamısını təbrik edirəm, ədalət mühakiməsinin həyata keçirilməsində onlara uğurlar arzulayıram!

Sağ olun.

Aparatın işçiləri kömək etsinlər, yola salsınlar, hamısını təbrik edirik.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, növbəti 5 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır.

Beləliklə, gündəliyin 9-cu məsələsi "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi, gündəliyin 10-cu məsələsi isə "Media haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qa-

nunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, hörmətli həmkarlar, həmişə olduğu kimi, təklif edirəm ki, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. Hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Həm 9-cu, həm də 10-cu məsələlər parlament tərəfindən qəbul edilmiş “Media haqqında” Qanunun tətbiqi ilə bağlıdır. Mahiyyəti uyğunlaşdırma xarakterlidir. Yeganə 9-cu məsələ Konstitusiya qanunu olduğuna görə səsvermədə həmkarlarımızdan diqqətli olmağı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, 10-cu məsələyə Milli Məclisin daha 5 komitəsində baxılmışdır. Mən həmin komitələrin sədrlərindən rəylərini soruşacağam. Elə birinci komitə İctimai birliklər və dini qurumlar komitəsidir. Hörmətli Fəzail müəllimdən xahiş edəcəyəm ki, komitənin rəyini bildirsin. Buyurun, Fəzail müəllim.

**F.İbrahimli,** *Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri.*

Komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Fəzail müəllim, çox sağ olun. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin rəyini bildirmək üçün komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Ziyafət müəllim, çox sağ olun. Mədəniyyət komitəsinin rəyini bildirmək üçün Fazil müəllim, buyurun, komitənin sədrisiniz, xahiş edirəm, rəy bildirin.

**F.Mustafa,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Məlahət xanım, Siz məsələ ilə bağlı Əmək və sosial siyasət komitəsinin rəyini bildirin. Buyurun.

**M.İbrahimqızı,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, xanım sədr. Bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımızdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini Əli müəllim, Siz bildirirsiniz. Xahiş edirəm, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, indi səsverməyə keçəcəyəm. 9-cu məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Diqqətli olun. Çünki bizə 95 səs çoxluğu lazımdır.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, siz bilirsiniz ki, Konstitusiya qanunları Milli Məclisdə 2 dəfə səsə qoyulur. Bu gün biz birinci səsverməni başa çatdırdıq. 6 aydan sonra bu Konstitusiya qanununa ikinci səsvermədə münasibət bildirməliyik.

İndi isə 10-cu məsələyə keçirik. "Media haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, növbəti 2 məsələ də möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə də bir-birinə yaxındır. 11-ci məsələ

“Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Qanunda, gündəliyin 12-ci məsələsi isə “Bələdiyyələrin statusu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki qanun layihəsinə Regional məsələlər komitəsində baxılmışdır. Odur ki, mən Siyavuş müəllim, Sizdən xahiş edəcəyəm ki, hər iki qanun layihəsi haqqında birgə məlumat verəsiniz. Buyurun.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. İkinci oxunuşdan sonra komitəyə heç bir müraciət, təklif daxil olmayıb. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 11-ci məsələyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti 12-ci məsələdə olan qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, növbəti məsələyə keçirik. Gündəliyimizdəki 13-cü məsələ "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məndə olan məlumata görə Əli müəllim, yenə də Siz məlumat verəcəksiniz. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Komitəmizə bu layihə ilə bağlı ikinci oxunuşda heç bir təklif daxil olmamışdır. Ona görə də olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 6 məsələ ikinci oxunuşda olan qanun layihələridir. İndi biz gündəliyin 14-cü məsə-

ləsinə keçirik. Bu məsələ "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu məsələ ilə bağlı hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun, məlumat verin.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsini birinci oxunuşda geniş müzakirə etmişik, həm də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunub. Barəsində hər hansı rəy və təklif olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Çox hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Sağ olun, hörmətli xanım sədr. Bizim komitənin də rəyi müsbətdir. Ona görə həmkarlarımdan layihəni bir daha dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Layihəyə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Musa müəllim, özünüz təqdim edəcəksiniz? Buyurun, hörmətli Musa Quliyev.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bizim də komitənin rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Bildiyiniz kimi, biz qanun layihəsini əsas kimi

qəbul etməliyik. Qanun layihəsinə əsas kimi münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyənlər var. Fəzail Ağamalı, deyəsən, sualınız var, ya da təklifiniz? Buyurun, Fəzail müəllim.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Sadəcə, səhv etdim. Xahiş edirəm, düzəliş olunsun. 13-cü məsələyə səhvən "lehinə" əvəzinə, "əleyhinə" səs verdim. Xahiş edirəm, protokolda bu, "lehinə" kimi qeyd olunsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi, nəzərə alınacaq. Etibar Əliyev. Etibar müəllim, bu məsələ ilə bağlı çıxış edirsiniz? Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Çalışacağam ikinci oxunuşun tələblərinə uyğun danışım. Çıxışım qısadır, təklifim olacaq.

"Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik, əlbəttə, vacib dəyişiklikdir. Dəyişiklikdə yeni maddə – 10-2-ci maddə aşağıdakı redaksiyada verilib: "İqtisadiyyat və hüquq sahəsində elmlər doktoru dərəcəsi olan şəxslər, eləcə də baş və ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələrə təyin olunan şəxslər vergi orqanlarına xidmətə qəbul edilən zaman onlar barəsində

staj müddəti müəyyən edilmir”. Niyə məhz elmlər doktorları? Bu maddəyə niyə iqtisadiyyat və hüquq sahələrində fəlsəfə doktorları nəzərdə tutulmur?

Bilirik ki, istər Elmlər Akademiyasında, istərsə də universitetlərdə çalışan alimlər barədə hansısa güzəştlər ediləndə bu dərəcələrin hər ikisi nəzərə alınır. Təklif edirəm ki, bu maddəyə iqtisadiyyat və hüquq sahələrində fəlsəfə doktorları da əlavə olunsun.

Digər tərəfdən, dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələrin verilməsinin məqsədəuyğun hesab edilməməsi barədə Ali Attestasiya Komissiyasının 2000-ci il 19 may tarixli qərarı hələ də qüvvədən düşməyib. Aydın məsələdir ki, bu qərar vergi orqanlarında çalışanlara da şamil edilir. Məgər iqtisadiyyatın bu mühüm sahəsində tədqiqatlara ehtiyac yoxdur?

Ali məktəblərdə və AMEA-nın İqtisadiyyat İnstitutunda çalışanlar, əsasən, nəzəri tədqiqatlar aparırlar. Lakin sırf praktik sahədə çalışanlar bu işdə niyə məşğul olmasınlar?

İnsan hüquqları üzrə müvəkkil hörmətli Səbinə xanım Əliyeva builki məruzəsində Ali Attestasiya Komissiyasının 2000-ci il 19 may tarixli qərarının ləğv edilməsini məqsədəuyğun hesab etmişdi. Bu təklif hesabata daxil olmuşdu. Lakin ombudsmanın bu vacib müraciətinə məhəl qoymurlar.

Yenə də hesab edirəm ki, dəyişikliklər vacibdir və yeni maddəyə konkret olaraq iqtisadiyyat və hüquq sahələri üzrə fəlsəfə doktorlarının da əlavə edilməsi məqsədəuyğun hesab oluna bilər. Sağ olun.

**Sədrlik edən.** Etibar müəllim, çox sağ olun. Kamal Cəfərov, bununla bağlı sözünüz var? Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Mən hörmətli Etibar müəllimin təklifini diqqətlə qeyd etdim. Ancaq məlumat vermək istəyirəm ki, elmlər doktoru məsələsi, yəni məhz elmlər doktorunun olması, fəlsəfə doktorunun olmaması səbəbi həm "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq unifikasiya edilmişdir, həm də dövlət qulluğunun digər xüsusi növü olan qurumlarda da elmlər doktoruna oxşar olan meyarlar əsas götürülmüşdür.

Digər tərəfdən, qeyd olunur ki, iqtisadiyyat və hüquq üzrə spesifikləşdirilmə fərdi məsələdir. Müxtəlif sahələrdə ola bilər. Amma ilkin formada budur. Sonradan zərurət olarsa, yaxud hansısa formada ehtiyac yaranarsa, digər təcrübə də nəzərə alınmaqla bunu etmək mümkündür. Sağ olun.

**Sədrlik edən.** Yəni hələ unifikasiya xarakteri daşıyır. Ancaq yenə də lazım olsa, Etibar müəllimlə danışın, xahiş edirəm.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Ona görə qanun layihəsinin səsvermə proseduruna keçirik. Maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.
İndi 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.
Növbəti məsələyə keçirik. Bu, "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün hörmətli Məlahət İbrahimqızı çıxış edəcək. Məlahət xanım, buyurun.
**M.İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Bildiyimiz kimi, bu qanun layihəsi plenar iclasda birinci oxunuşda

geniş müzakirə edilmişdir. Müzakirə zamanı heç bir təklif, dəyişiklik, düzəliş olmadı. Komitədə ikinci oxunuşda yenidən müzakirə edildi. Qanun layihəsinin parlamentin plenar iclasında yekdilliklə qəbul olunması təklif edildi. Həmkarlarımızdan xahiş edirəm, bu qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım. Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, xahiş edirəm, komitənin rəyini bildirin.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi komitədə müzakirə edilmişdir, əlavə rəy və təkliflər olmamışdır. Layihə ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, xatırladıram, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, bu qanun layihəsini əsas kimi qəbul etməyə səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Mən bir təklifimi ikinci oxunuşun tələblərinə uyğun olaraq təqdim etmək istərdim.

Əvvəla, təbii ki, təqdim olunan qanun layihəsini dəstəkləyirəm, kifayət qədər vacibdir. Bu, yalnız anaların deyil, eyni zamanda, ataların da bu hüquqdan, güzəştdən istifadə etməsinə imkan yaradacaq.

Qanun layihəsinin 8.1-ci maddəsində qeyd olunur ki, 5 və daha çox övladı olan analar məhz bu güzəştdən istifadə edirlər. Əgər ailədə 5 və ya daha çox uşaq olursa, həmin ailədə ana 5 il daha tez pensiyaya çıxmaq hüququ qazanır. Təbii ki, bu, mütərəqqidir.

Amma digər ziddiyyət doğuran məqam ondan ibarətdir ki, "Sosial müavinətlər haqqında" Qanunun 4.0.1.13-cü maddəsində bu güzəştlər 5-dən çox uşağı olan qadınlara şamil olunur. Yəni bizim bu gün müzakirə etdiyimiz qanun layihəsində çox aydın şəkildə göstərilir ki, 5 və daha artıq. Amma "Sosial müavinətlər haqqında" Qanunda isə 5 və daha artıq deyil, 5-dən çox uşağı olanlar qeyd edilir. Nəticədə bu, ona gətirib çıxarır ki, 5 uşaq böyüdən analar pensiyada güzəşt əldə edirlər, amma onlar sosial müavinət ala bilmirlər. Çünki digər qanunda qeyd olunub ki, 5-dən daha çox uşağı olanlar. Ona görə mən təklif etmək istərdim ki, məhz bu gün bizim müzakirə etdiyimiz 8-ci maddəyə uyğun olaraq, "Sosial müavinətlər haqqında" Qanunun 4-cü maddəsində "5-dən çox deyil", yəni bizim müzakirə etdiyimiz kimi, "5 və daha çox" sözləri qeyd olunsun ki, pensiyada güzəşt əldə edən analar, həm də 5 uşaq böyütdüyünə görə sosial müavinətdən də istifadə edə bilsinlər. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar müəllim, Siz həmin komitənin üzvüsünüz. Komitədə səsləndirmisiniz bunu, yoxsa yox? Elə başa düşdüm ki, komitədə heç bir təklif olmayıb.

**V.Bayramov.** Sizin tapşırığınızla ezamiyyətdə olduğuma görə komitə iclasında iştirak etməmişəm.

**Sədrlik edən.** Aydındır. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsi bir maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti 16-cı məsələyə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, qanun layihəsi haqqında birinci oxunuş zamanı ətraflı məlumat verilmişdir. Qanun layihəsinin əsas məqsədi insan hüquqlarının daha səmərəli həyata keçirilməsinə nail olmaqdır. Komitəyə hər hansı bir təklif daxil olmadığı üçün layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Qanun layihəsi 2 maddədən ibarətdir. Biz maddələr üzrə səsverməyə keçirik. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyin 17-ci məsələsinə keçirik. Vergi Məcəllə-

sində, “Sosial sığorta haqqında” və digər 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə təqdim edilir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Tahir müəllimə söz verirəm. Buyurun. Tahir Mirkişili.

**T.Mirkişili.** Sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, dörd qanun layihəsi sənaye zonaları və texnologiyalar parkında olan qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Birinci üç qanun layihəsindəki dəyişikliklər sırf texniki xarakter daşıyır. Dördüncü qanun layihəsində isə sənaye zonalarında ödənişsiz reklam sahəsinin 1 kvadratmetrdən 20 kvadratmetrə qədər artırılması təklif olunur. Komitənin rəyi müsbətdir. Həmkarlarımdan layihələri dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Musa müəllim, layihəyə sizin komitənizdə də baxılıb. Rəyi özünüz verəcəksiniz? Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Birinci oxunuşdan sonra komitəyə heç bir təklif daxil olmayıb, mətndə dəyişiklik yoxdur. Qanun layihəsini ikinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Hörmətli həmkarlar, xahiş edirəm, səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci və 2-ci maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 3-cü və 4-cü maddələr qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu məsələ də Mülki Məcəllədə və "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi ipoteka saxlayanın tələbindən imtina etdiyi zaman mülkiyyət münasibətlərini və borclunun öldüyü zaman isə zaminin subsidiyar məsuliyyətini tənzimləyən qanun layihəsidir. Hər iki qanun layihəsi birinci oxunuşda həmkarlarım tərəfindən dəstəklənmişdir.

Hörmətli xanım sədr, birinci oxunuş zamanı deputat həmkarım hörmətli Siyavuş müəllim Novruzov tərəfindən təkliflər səsləndirilmiş və hər ikimizin işgüzar müzakirəsi zamanı bu məsələlərin gələcəkdə işlənilməsi barədə qərar qəbul olunmuşdur.

Amma, eyni zamanda, xatırlatmaq istərdim ki, məhz ipoteka sahəsində, xüsusilə də sosial ipoteka sahəsində keçən illər ərzində dövlət büdcəsindən maliyyələşmə ilə bağlı kifayət qədər işlər görülmüşdür. Təkcə 2023-cü ildə güzəştli ipoteka sahəsində, yəni 4 faizlik illik ipoteka krediti götürməklə 1670 vətəndaşa dövlət büdcəsindən 112 milyon manat vəsait ayrılmışdır.

Eyni zamanda, mövcud qanunvericiliyə görə İpoteka və

Kredit Zəmanət Fondu qiymətli kağızlar buraxmaqla 2023-cü ildə 350 milyon manat vəsait cəlb etmişdir ki, bu da 5580 vətəndaşın mənzillə təmin olunmasına imkan yaratmışdır.

Bütövlükdə, bu məsələlərin daha geniş yayılması ilə bağlı fikirlə razıyıq. Amma hesab edirəm ki, bu istiqamətdə dövlətin sosial siyasəti də gələcəkdə kateqoriyanın daha çox genişlənməsinə imkan yarada biləcəkdir. Həmkarlarımdan qanun layihəsini bir daha dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən sözü hörmətli Nurlan Həsənova verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Komitənin rəyi müsbətdir, layihənin səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Hörmətli həmkarlar, yenə də ikinci oxunuşdur, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Xahiş edirəm, səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Səsverməyə keçirik. Qanun layihəsində iki maddə var. 1-ci maddəyə səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 100
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 19-cu məsələdir. “Media haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşa təqdim edilir. Hörmətli həmkarlar, mən ötən iclasda da bildirmişdim, layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilmişdir. Qanun layihəsinə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Birinci oxunuşda layihə ilə bağlı qısa söyləmişdik ki, 100 yaşlı “Şərq qapısı” qəzetinin dövlət hesabına yaşaması üçün Naxçıvan Ali Məclisi tərəfindən parlamentə müraciət olunubdur. Parlamentarilər də səsləri ilə buna müsbət mövqelərini ifadə etmişdilər. Layihə ilə bağlı hər hansı əlavə və təkliflər olmamışdır. İkinci oxunuşda da belə olacağına ümid edirəm.

Amma izin versəniz, çox qısa olaraq iki dəqiqə yarım ərzində bir başqa məsələ haqqında da fikirlərimi bölüşmək istəyirəm. Əgər izin verirsinizsə.

**Sədrlik edən.** 20-ci məsələ terrorla bağlı olacaq. Onda mən Sizə söz verərəm. Yaxşı?

Bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Əli müəllim, sözü Sizə verirəm, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu məsələ ilə bağlı komitənin mövqeyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyənlər var. Keçən dəfə də yazılmışdılar. Hörmətli həmkarlar, ümumi bir fikir var ki, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məsələni maddələr üzrə səsə qoyuruq. Layihədə 1 maddə var. Xahiş edirəm, həmin maddəyə səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Yadımdadır ki, keçən dəfə də hörmətli İsa müəllim, Sahib Alıyev bu məsələ ilə əlaqədar çıxışa yazılmışdılar. Aqil müəllim, deyəsən, Siz də yazılmışdınız. Siz çıxışlarınızı verin, mütləq biz onu stenoqrama daxil edəcəyik. Mən bilirəm, hamının ürəyi doludur. Bu, elə bir məsələdir ki, bütün Milli Məclis üzvləri ona yekdilliklə səs verdilər. Ona görə də çıxışlarınızı verin, mütləq stenoqrama salınacaq.

Keçən dəfə də Siz yazılmışdınız. Ancaq çıxış etməyə imkan olmadı.

Hörmətli həmkarlar, gündəlikdə 3 məsələ qalır və məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Yenə də özümə borc bilirəm, xatırladım ki, çıxışlar birinci oxunuşun tələblərinə uyğun olsun. İndi gündəliyin 20-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya

ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Ziyafət müəllimə söz verirəm. Ziyafət Əsgərov, buyurun.

**Z.Əsgərov**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının İkinci Protokolunda nəzərdə tutulmuş mədəni sərvətlərin qorunmasına dair müddəaların milli qanunvericilik aktlarına daxil edilməklə onların icrasının təmin edilməsi üçün hüquqi əsasın yaradılması məqsədi ilə hazırlanmışdır. Qanun layihəsində silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsinin beynəlxalq qaydaların öyrənilməsi və onlara riayət edilməsi vəzifəsinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına tapşırılmasına, silahlı münaqişə zamanı daşınar mədəni sərvətlərin təhlükəsiz yerlərə köçürülməsində fərqləndirici emblemlə işarələnmiş nəqliyyat vasitələrindən istifadə olunması imkanının təsbit edilməsinə, ekstradisiyadan imtinanın hüquqi əsaslarının genişləndirilməsinə, habelə Azərbaycan xalqının milli, mədəni və hərbi irsinə aid obyektlərə xüsusi mühafizə və ya gücləndirilmiş mühafizə statusunun verilməsinə dair tələbləri nəzərdə tutan normalar öz əksini tapmışdır.

Mən bir daha qeyd etmək istəyirəm ki, bu, beynəlxalq sazişə müvafiq hazırlanmış bir qanun layihəsidir. Özü də bu dəyişikliklər bir sıra qanun layihələrində nəzərdə tutulmuşdur. Ona görə hörmətli həmkarlar, xahiş edirəm, bu qanun layihəsinə müsbət münasibət bildirəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə də

baxılmışdır. Komitələrdən biri Mədəniyyət komitəsidir. Ona görə də sözü komitənin sədri Fazil müəllimə verirəm. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Birinci layihə üzrə bu qanun layihəsi Mədəniyyət komitəsində müzakirə olunmuşdur. Rəy müsbətdir, xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Əli müəllim, mən Sizdən xahiş edəcəyəm, məlumat verəsiniz.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Bizim komitənin də rəyi müsbətdir. Çünki bu qanun layihəsi çox əhəmiyyətlidir. Ziyafət müəllim də çox geniş təqdim etdi. Həqiqətən, o, Azərbaycanın mədəni sərvətlərinə qarşı terrorun qarşısının alınması, bizim konvensiyaya qoşulmağımız və o konvensiya normalarının qanunvericilikdə tətbiqi ilə bağlıdır. Ona görə həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mədəniyyət komitəsinin üzvü kimi mədəniyyət sahəsində olan vacib problemlərə diqqət yetirməyinizi istəyirəm. Qanunvericilik səviyyəsində müəyyən işlər aparılır, nazirlik nələri isə dəyişmək üçün çalışır, müsbət dəyişikliklər var. Amma mədəniyyət sahəsində çalışan şəxslərin gəlirləri sosial yardım alanların aylıq gəlirləri ilə bərabərlik təşkil edir. Bu sahədə ciddi dəyişiklik etmək lazımdır və növbəti büdcə dəyişikliyi olarsa, mütləq mədəniyyət sahəsində çalışanların əməkhaqlarının artırılmasına ehtiyac var.

Mədəniyyət dedikdə insanlarımız şou başa düşməsinlər.

Mədəniyyət əxlaq, müdriklik, ziyalılıq, maarifləndirmə və cəmiyyətin inkişafına işıq tutan güzgüdür. Ölkədə mədəniyyət mərkəzləri, kitabxanalar, muzeylər, Heydər Əliyev mərkəzləri var. Orada əməkhaqları çox azdır, minimum əməkhaqqı qədərdir. Fikrimi Heydər Əliyev mərkəzləri üzərində əsaslandıracağam. Mərkəzlərdə rəhbərlər 500 manatdan bir az çox, digər işçilər 350 manat maaş alırlar. Mərkəzlərin saxlanılması üçün isə qəpik də ayrılmır. Orada yaranan kiçik təmirləri çalışanlar aldıqları əməkhaqları ilə edirlər. Bu, doğru deyil.

Həm Heydər Əliyev mərkəzlərində, həm də digər mədəniyyət mərkəzlərində, klublarda və bu kimi yerlərdə, ümumilikdə, mədəniyyət sahəsində çalışanların əməkhaqlarının qaldırılması ilə yanaşı, həm də məsələyə bazar iqtisadiyyatı prinsipi ilə yanaşmaq lazımdır. Heydər Əliyev mərkəzlərində, o cümlədən digər mədəniyyət mərkəzlərində, klublarda nazirlərin qəbulları, iclasları, görüşləri, icra hakimiyyətlərinin, o cümlədən müxtəlif dövlət və qeyri-dövlət təşkilatlarının tədbirləri keçirilir. Amma bir qəpik də pul ödənilmir. Bu, bazar iqtisadiyyatı baxımından düzgün deyil.

Təklif edirəm ki, mədəniyyət mərkəzlərində keçirilən tədbirlərə görə ödəniş tətbiq olunsun. Nazirliklər, icra hakimiyyətləri, dövlət və qeyri-dövlət qurumları vəsait ödəsələr, təbii ki, kasıb düşməzlər. Bu, mədəniyyət ocaqlarının da inkişafı və orada çalışanların sosial durumunun yaxşılaşması baxımından da vacibdir. Bütün mərkəzlər, mədəniyyət ocaqları, ümumiyyətlə, həssas əhali qrupu üçün nəzərdə tutulmuş yerlərdən başqa hər sahə bazar iqtisadiyyatı prinsipi ilə işləsə, yaxşı olar. Bununla bərabər müəyyən qruplar üçün gərək sosial bərabərlik də nəzərə alınsın.

Bir neçə dəfə eşitmişəm, deyirlər ki, Heydər Əliyev adına mərkəzlərdə hər şeyə görə pul almaq Heydər Əliyevin adına yaraşmaz. Təbii ki, sual olunur: Heydər Əliyev mərkəzlərində işçilərə minimum əməkhaqqı dəyərində maaş vermək Heydər Əliyevin adına yaraşarmı? Təbii ki, yox. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, bu qanun layihəsi ilə bağlı nə isə deyəcəksiniz, ya yox? Sizin dediyinizin bu qanun layihəsinə aidiyyəti yox idi. Əslində Sizin demək istədiyiniz bizim 3 dəqiqəlik çıxışlarımıza aiddir.

Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Mədəni mülkiyyətin müharibələr dövründə qorunması müasir beynəlxalq hüququn, həmçinin müasir beynəlxalq humanitar hüququn qarşısında duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, mədəni irsin münaqişələr zamanı qorunması ilə bağlı məsələlər xüsusi beynəlxalq sazişlə, qeyd olunduğu kimi, 1954-cü il tarixli "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Beynəlxalq Haaqa Konvensiyası ilə tənzimlənir.

Cari layihə ilə məhz bu konvensiyanın ikinci protokolunun milli qanunvericiliyə daxil edilməsinə nail olmaqla Azərbaycan bir daha beynəlxalq hüquqa sədaqətini ifadə edir və bu, həm də, bütövlükdə, hazırda dünyada davam edən münaqişələr fonunda bəşəriyyətin mədəni irsinin qorunması istiqamətində mühüm bir töhfədir və eyni zamanda, Azərbaycandan nümayiş olunan ciddi siyasi iradədir.

Bildiyiniz kimi, konvensiyanın ilk maddəsinə əsasən xalqın mədəni irsində xüsusi rolu, əhəmiyyəti olan bütün daşınar və daşınmaz mülkiyyət, həmçinin onların

yerləşdiyi mərkəzlər, eləcə də daşınar mülkiyyətin saxlandığı binalar, məsələn, muzeylər, kitabxanalar, bunlar mədəni mülkiyyət nümunələri hesab olunur və qorunmalıdır. Amma bütün dünyanın gözü qarşısında beynəlxalq humanitar hüquq qaydalarına zidd olaraq istər Birinci Qarabağ, istərsə də İkinci Qarabağ münaqişəsi dövründə Şərqi Zəngəzurda və Qarabağda çoxsaylı mədəni irs nümunələri vandalizm aktına məruz qalıb, bir çoxu işğal dövründə qəsdən tamamilə dağıdılıb.

Eyni zamanda, bu gün Azərbaycanın başladığı bərpa-quruculuq prosesi, bilirsiniz ki, mədəni nümunələrimizə də şamil edilir. Bu prosesdə Heydər Əliyev Fondunun xüsusi əməyi var. Amma həmin ərazilərin minalı qalması bərpa prosesinə maneçilik törədir. Eyni zamanda, mina partlayışları tarixi abidələrin bir çoxunun ciddi zərər görməsinə, bir çox hallarda dağılmasına səbəb olur.

Bilirsiniz ki, bir müddət öncə Haaqa Konvensiyasına Tərəf Ölkələrin 15-ci görüşündə Azərbaycanın təşəbbüsü ilə "Minaların mədəni irsə təsiri" mövzusunda qətnamə qəbul edilmişdir. Amma Azərbaycan mədəni irsinin terrora məruz qalmasına baxmayaraq, hələ də bu istiqamətdə qlobal miqyasda lazımi diqqət göstərilmir. Əksinə, bu günlərdə biz bir daha şahidi oluruq ki, bu terrorun birbaşa subyekti olan Ermənistan həm aidiyyəti ixtisaslaşdırılmış təşkilatların qərəzi ilə, həm də bir qrup Qərb subyekti tərəfindən yeni cinayətlərə təhrik edilir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, təqdim olunan qanun layihəsi çox vacib qanun layihəsidir. Çünki bu, Azərbaycanın taleyüklü məsələləri ilə bilavasitə bağlıdır. Biz Azərbaycanda baş

verən bütün proseslərin şahidiyik. 30 ildən artıqdır ki, Azərbaycanın həm təbii, həm də tarixi və mədəni sərvətləri daşınır, satılır, talanır. Bunun nəticəsi olaraq ayrı-ayrı dövlətlər, xüsusilə də Ermənistan və İran Azərbaycan sərvətlərini öz adları ilə dünya bazarlarında satışa çıxarırlar. Mən özüm şahidiyəm, Amerika Birləşmiş Ştatlarının müxtəlif xalça bazarlarında və mağazalarında həm ermənilər, həm də İrandan olan tacirlər Azərbaycan xalçalarını, işğal etdikləri ərazilərdəki evlərdən, muzeylərdən, mədəniyyət evlərindən, məscidlərdən apardıqları xalçaları, Azərbaycanın tarixini özündə əks etdirən digər tarixi ləvazimatları öz adları ilə ayrı-ayrı xalqlara satmaqla məşğuldurlar. 57 məsciddən 55-i dağıdılıb və onların bütün avadanlıqları, istər orada olan tarixi kitablar, istər "Quran", istərsə də məscidə aid atributlar hamısı aparılıbdır. O cümlədən Azərbaycanda qəbiristanlıqlarda tarixi qoç abidələri var idi. Onlar da hamısı aparılıb. Özlərinə yeni bir tarix düzəldirlər.

Azərbaycanın bir neçə tarixi mağaraları – Azıx mağarası, digər mağaralar var idi ki, oradan tarixlə bağlı ləvazimatlar daşınıb. Azərbaycanın mindən artıq muzeyi dağıdılıb. Hər kənddə muzey, kitabxana var idi, demək olar ki, hər rayon mərkəzində bunlar dağıdılıbdır. Bunlar hamısı Azərbaycan xalqının sərvətidir.

Mən hesab edirəm ki, bu məsələ də beynəlxalq hüquqla tənzimlənərək məhkəmələrə verilməlidir. Beynəlxalq məhkəmələrdə bu məsələ qaldırılmalıdır ki, Azərbaycan vətəndaşlarının, o cümlədən dövlət obyektlərinin daşınan bütün ləvazimatlarının, mədəni atributlarının hamısı geri qaytarılsın.

İkinci xüsusi bir məsələ cinayət törətmiş şəxslərin ekstradisiya olunması ilə bağlıdır. Təbii ki, bu da vacibdir.

Mən hesab edirəm ki, bunu da yaşamışıq. Xatırlayırsınızsa, vaxtı ilə Ağdam həbsxanasından, digər həbsxanalardan ermənilərin ekstradisiya olunmasını görmüşük.

Ekstradisiya ilə bağlı bir haşiyə çıxım. Bu gün çalışmalıyıq ki, dünyada da ekstradisiya olunmanı daha da ciddiləşdirək. Azərbaycanın əleyhinə iş aparanlar, Azərbaycanda silahlı münaqişəyə, vətəndaş qarşıdurmasına çağıranlar, Azərbaycana böhtan atanlar ermənilərə xüsusi şərait yaradırlar. Məsələn, bəziləri var, qeyd edirlər ki, guya ermənilərin indi Xankəndidə, digər yerlərdə qalan əmlakları dağıdılır. Hansı ki, hamısı möhürlənibdir, bu gün qorunur. Əvvəl çıxışımda da qeyd etdim, baxmayaraq, ermənilər azərbaycanlıların əmlaklarını darmadağın ediblər, amma böhtan atırlar ki, bunları guya Azərbaycan polisi dağıdıb. O adamlar xaricdən gətirilməlidir, cinayət məsuliyyətinə cəlb olunmalıdır və həmin dövlətlər qarşısında kəskin məsələ qoyulmalıdır.

Rusiya ayrı-ayrı dövlətlər qarşısında kəskin məsələ qoyub ki, terroru törədənlər, ona dəstək verənlər ekstradisiya olunmalıdır, müqaviləsi olsa da, olmasa da, Rusiyaya verilməlidir. Biz də bu məsələni konkret qoymalıyıq ki, əgər siz mənəvi terrorla məşğul olan insanlara bu cür himayəçilik edirsinizsə, biz də sizinkilərə o cür himayəçilik edəcəyik və bu addımları atacağıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim, həmişə Azərbaycan ekstradisiya məsələlərinə çox ciddi yanaşır və bunun nümunələri də var. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Beynəlxalq konvensiyadan irəli gələn müddəaların qanunvericilik sistemində əksini tapması, mədəni sərvətlərin qorunması üçün nəqliyyat vasitələrinə

xüsusi fərqləndirici nişan qoyulması alqışlanan bir hadisədir. Hətta biz deyərdik ki, bir az da irəli gedib xüsusi nəqliyyat vasitələri yaratsınlar, Qızıl Aypara Cəmiyyətinin, yaxud da Qırmızı Xaç Cəmiyyətinin maşınları kimi bu humanitar missiyanı bura transfer etsinlər. Ancaq dərhal sual olunur. Bu konvensiyaların qəbuluna birinci cavabdehlik daşıyan UNESCO həmin prinsipləri öz fəaliyyətində nə dərəcədə qoruyur? Bildiyiniz kimi, onun baş direktoru Odri Azulay adlı bir şəxsdir. Üçüncü nəsil erməni millətinə məxsusdur. Biz fobiyalarla, yaxud da irqi ayrı-seçkiliklə yaşamırıq. Onların da Fransada, Yelisey daxil hansısa mühüm vəzifələrə seçilməyə haqqı var. Ancaq Vətən müharibəsində qələbəmizdən sonra onun fəaliyyəti həmin qurumu beynəlxalq missiya deyil, Fransanın xarici siyasət idarəsinə çeviribdir.

Bizim aləmimizdə ən böyük mədəni sərvət torpaqdır. Bu torpağa bir milyon minanı əkən qüvvəyə qarşı himayəedici münasibət torpağa münasibətdir. Sonra onun üzərində insan əli ilə yarananlar, ikinci məsələdir.

Hörmətli xanım sədr, mən, eyni zamanda, bu terrorun başqa bir növünə, bu yaxınlarda baş vermiş məsələyə izninizlə qısa münasibətimi bildirmək istəyirəm.

Martın 22-də "Crocus City Hall"da baş verən qətliamın hərbi təyinatlı dövlət binalarında deyil, mülki obyektdə törədilməsi göstərir ki, kütləvi qəsdin sifarişçiləri bir nəfəri 60 dollara gülləboran etməklə hədəf seçilən Rusiya ilə yanaşı, keçmiş sovet məkanında xaos yaymaq, dinlər və millətlərarası konfliktləri alovlandırmaq, miqrasiya axınlarına zərbə vurmaq, sərhədləri bağlı saxlamaq istəyən dövlət dəstəkli qüvvələrdir.

Cihadçı elan olunan icraçıların "Allahu-Əkbər" şüarı

söyləmədikləri halda, dərhal beynəlxalq mediada “İŞİD” adı ilə tirajlanması Rusiyanı islam dünyası ilə toqquşdurmağa, din bayraqlı qüvvələrlə mübarizə adı ilə ölkələri yenidən işğal etməyə çalışan, bir vaxtlar “Əl-Qaidə”ni və “Taliban”ı silahlandıran dövlətlərdir. Halbuki hadisənin islam etiqadlı iş adamına məxsus məkanda törədilməsini, ölən 145 nəfər günahsız insanın, 500-dən çox yaralı adamın içində müsəlmanları görən yoxdur.

Moskva terrorunu müşayiət edənlər, informasiya toruna düşüb etnik milli düşmənçiliyi körükləyənlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın terror aktına qətiyyətli etirazlarından nəticə çıxarsınlar, yoxsa “Charlie Hebdo” olayında 5 nəfərə görə birlik paradı keçirən qərbli dövlət başçılarının “yaxşı və pis terrorçu” bölgüsü ilə beynəlxalq təhlükəsizliyə zərbə vuracaqlar.

Mədəni terrorun silahı Kalaşnikov avtomatı, bomba və raketlər deyil, nifrətin, xofun, daxili inamsızlığın artmasıdır, rəsmi hakimiyyətin deyil, terror qruplarının mənəvi və siyasi hakimiyyətinin güclənməsidir.

Terror aktının azərbaycanlı iş adamına məxsus binada törədilməsi dünya erməniliyi üçün azğın anti-Azərbaycan kampaniyasına rəvac verib. Halbuki ölkəmiz, burada qeyd olunduğu kimi, təkcə son 37 ildə iki mindən artıq vətəndaşını terror nəticəsində itirib. Qəsdlər, xüsusilə ötən əsrin 90-cı illərində erməni işğalının nəticəsi, həm də müharibənin bir parçası olub. Qlobal Terrorizm İndeksi də bunu təsdiqləyir. Köçəryan və Sarkisyanla yanaşı, Gəncəni və Bərdəni vuran, son 3 ildə Qarabağa “mina əkən” inqilabçı demokratlardan da biz ziyan çəkmişik.

İnanırıq ki, Xankəndidə təslim olan separatçı qüvvələrin ələ keçirilən 35 illik məxfi qovluqları müstəqillikdən bu yana xalqımıza qarşı törədilən terror aktlarını ifşa

edəcək, DTX təcridxanasında məhkəməsini gözləyənlər Qarakənd faciəsindən Bakı metrosuna qədər çoxsaylı qanlı cinayətlərin sifarişçilərini ələ verəcəklər, dilə gətirəcəklər.

Bir vaxtlar Şimali Qafqaza Xəttabın ordusu ilə gələnlər indi Ermənistanı hərbiləşmiş zonaya, özü boyda Pankisi dərəsinə çevirir, sərhədlərimizi Avropa kəşfiyyat mərkəzlərinin patrul dəstələri ilə nəzarətə götürməyə çalışırlar. Ölkəmizdə dini və siyasi casusluğa cəlb olunanlar, o cümlədən Londonda və Tehranda səfirliyimizə hücum edənlər eyni qüvvələrdir.

Lakin hamı bilsin ki, Vətən müharibəsində işğalçılarla bərabər terror üzərində də qələbə qazanmışıq. Ona görə təklif edirik ki, Türk Dövlətləri Birliyi ilə eyni məqsədli, həm də bu məramda beynəlxalq terror şəbəkələri olan "PKK", "İŞİD" və erməni terroruna qarşı Yeni Türk Antiterror Mərkəzi yaradılsın. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, bu qanun layihəsinə dəyişiklikdə silahlı münaqişə zamanı daşınar mədəni sərvətlərin təhlükəsiz yerlərə köçürülməsindən söhbət gedir ki, bu məsələ çox təəssüf ki, bu gün də aktuallaşır. Baxmayaraq ki, Blinkenlə Ursula Fon der Lyayen Azərbaycan Prezidenti ilə telefon danışıqlarında bunun əksini sübut etməyə çalışırdılar. Amma Brüsseldəki bugünkü üçtərəfli görüş bunu daha da aktuallaşdırır. Cənab İlham Əliyevə edilən həmin zənglər Brüsseldəki bugünkü üçtərəfli görüşün formaca əleyhimizə yönəldiyi haqda izahat xarakteri daşısa da, mahiyyətcə yenə də Ermənistana dəstək məqsədi ilə idi ki, gözlənildiyi kimi ona reaksiya da adekvat və belə demək mümkünsə, diplomatik şillələrlə dolu oldu. Azərbaycan Prezidentinin dünyanın ən informasiyalı

şəxslərindən biri olduğunu bilə-bilə ABŞ-ın dövlət katibinin Brüssel görüşünü yumşaq desək, fərqli rakursda təqdim etməyə çalışması Ermənistanın havadarlarının da keyfiyyət baxımından Paşinyandan çox da fərqlənmədiklərini ortaya qoyur. Əlbəttə, Azərbaycan bunları görməzdən gəlməyəcək, harada mümkündürsə, orada qlobal layları tərpətməyə davam edəcək. Konqo Prezidentinin ölkəmizə səfəri və cənab İlham Əliyevin Seneqalın dövlət başçısına dünən göndərdiyi təbrik məktubunda neokolonilalizmə qarşı birgə əməkdaşlıq haqda yer alan fikirlər bunun təsdiqidir.

Hörmətli həmkarlar, dünən Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü idi. Qərbdə kiminsə, o sıradan elə Blinkenin 350 nəfər azərbaycanlının postmünaqişə dövründə mina terroru qurbanına çevrilməsindən ürəkdən kədərləndiyini, bunun qarşısını almaq üçün hərəkətə keçdiyini görən olubmu? Ermənistanı sülh göyərçini, Azərbaycanı isə təcavüzə meyilli dövlət kimi təqdim etməyə çalışanlar birinciyə yüz milyonlarca dollarlıq hərbi yardım göstərməyi planlaşdırdıqları halda, "sevimli hayları"nın torpaqlarımızda xarabazarlığa çevirdikləri yaşayış məskənlərinin bərpasına niyə bir qəpik belə ayırmırlar? Biz müsəlmanıq, ona görəmi?

Yeri gəlmişkən, bugünkü üçtərəfli Brüssel görüşü, fikrimcə, bizim regionun dini zəmində qütbləşməsini və parçalanmasını ön görən planın tərkib hissəsi olmaqla yanaşı, həm də Çini Avropa ilə birləşdirən Orta Dəhlizə zərbə endirmək, arxasında Vaşinqtonun durduğu və İranın da maraqlarına cavab verən "hay qovşağı"na yaşıl işıq yandırmaq yönündə atılan addımlardan biridir. Qərbdəki bəlli çevrələrin saxta din təəssübkeşliyi pərdəsi altında

Qafqazı qaynar qazana çevirmək niyyətlərini mən qətiyyətlə pisləyirəm. Orasını da deməliyəm ki, islamafob ünsürlərin bizim regiona yanaşmada yeritdikləri siyasət cəmiyyətin bəlli bir kəsminə burada məzhəbçilik və radikallıq toxumu səpməyə çalışan İranın fəaliyyətindən heç də az mənfi təsir etmir. Onların bir qismi bilərəkdən elə həmin dövlətin ağuşuna itələnilir ki, elələrinin bir neçəsi ötən günlərdə Lənkəranda terror törətməyə hazırlıqda şübhəli bilinərək həbs olundular. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elnur Allahverdiyev. Hörmətli həmkarlar, fasilə zamanındayıq, etiraz etmirsinizsə, fasiləsiz davam edək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, media nümayəndələri. Müzakirə etdiyimiz qanun layihəsi çərçivəsində tarix və mədəniyyət abidələrinin qorunması haqqında qanunla bağlı kiçik qeyd və təklifimi diqqətinizə çatdırmaq istəyirəm. Ölkəmizdə tarixi abidələrin bərpası, mədəni irsimizin dirçəldilməsi və qorunması istiqamətində böyük işlər görülür. Dövlət bu təmayüllü təşəbbüslərə ciddi maraq göstərir və dəstək verir. Heydər Əliyev Fondu maddi-mənəvi irsimizin mühafizəsi istiqamətində çoxsaylı layihələr həyata keçirir. Eyni zamanda, Mədəniyyət Nazirliyi zəngin tariximizin bizə yadigar olan mədəniyyət və incəsənətinə qayğı göstərir. Cənab Prezidentin həyata keçirdiyi növbəti uğurlu kadr islahatları nəticəsində Mədəniyyət Nazirliyində və tabeliyində olan qurumlarda yeni dünyagörüşlü və idarəçilik bacarığı olan kadrların yüksək vəzifələrə təyin edilməsi bu prosesə yeni və fərqli yöndən baxmağa imkan

yaradır. Bu kontekstdə toxunacağım bəzi ümummilli, çaplı məqamlar var ki, fikrimcə, bunlar diqqətimizdən yayınmamalıdır. Qədim və zəngin tariximiz bizə çoxsaylı maddi-mənəvi mədəniyyət abidələri bəxş edib. Ölkəmizin, demək olar ki, hər güşəsində qədim qalalar, onların qalıqları, məbədlər, məscidlər var. Düşünürəm ki, onların bərpasının sürətləndirilməsi həm tarixi irsimizin mühafizəsi, həm də turizm baxımından olduqca vacibdir.

Hazırda dövlətimiz işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur istiqamətində misilsiz işlər görür. Həm işğal dövründə, həm də Vətən müharibəsindən sonra biz ermənilərin uzun illər boyunca bizə məxsus dini, mədəni, tarixi irs nümunələrini necə məhv etdiklərini, yaxud saxtalaşdırıb öz adlarına çıxardıqlarını gördük. Bu proses onlar tərəfindən bu gün də çoxsaylı müzakirə və mübahisə platformalarında davam etdirilir. Fikrimcə, bu fakt təsdiqləyir ki, qeyd etdiyim məsələdə biz daha çevik olmalıyıq. Ölkəmizin bəzi yerlərində mövcud olan arxeoloji tapıntılara dövlətimiz sahib çıxmalıdır. Məsələn, Şəkinin Fazıl kəndi ərazisində antik mikropil var. İlk dəfə 1984-cü ildə qeydə alınıb. 1996-cı ildə burada yerli arxeoloqlar tərəfindən yeraltı muzey yaradılıb. Təəssüf ki, bu zəngin muzeyin dövlət statusu yoxdur. Hesab edirəm ki, dövlətimiz onun saxlanılması, təmiri və turizm üçün cəlbedici olması işini öz üzərinə götürməlidir. Təbii ki, əsas məsələ maliyyə məsələsidir. Maliyyə mənbələrinə toxunmaya bilmərik. İlk öncə hesab edirəm ki, dövlət büdcəsində bu qəbildən olan xərclərin artırılmasına çalışmalıyıq.

Digər tərəfdən, daha bir praktik yol özəl sektoru belə abidələrin bərpası və təmiri prosesinə cəlb etməkdir. Əminəm ki, ölkəmizdə tarixin, irsimizin qayğısına qalmaq

istəyən, maraq göstərən vətəndaşlar və şirkətlər az deyil. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, müzakirələr bitdi. Mən indi qanun layihəsini səsə qoyuram, xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**A.Nağıyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm. Xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkəmizin milli təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələrin lazımi səviyyədə icrası məsələlərində xarici tərəfdaşlarla qurulmuş səmərəli və sıx əməkdaşlıq münasibətləri çox böyük önəm kəsb edir. Hazırda Dövlət Təhlükəsizliyi Xidməti dünya ölkələrinin yüzə yaxın xüsusi xidmət orqanları ilə beynəlxalq

terrorçuluğa və onun maliyyələşdirilməsinə, transmilli mütəşəkkil cinayətkarlığa, kəşfiyyat pozuculuq fəaliyyətinə, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına, insan alverinə, qaçaqmalçılığa, kiber cinayətkarlığa qarşı mübarizənin aparılması istiqamətində faydalı əməkdaşlıq edir. Belə ki, çoxsaylı beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli formatda işgüzar əlaqələr qurulmuşdur.

Bununla əlaqədar "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanı qəbul olunmuşdur. Həmin fərmana əsasən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa və kibercinayətkarlığa qarşı mübarizə sahəsində, habelə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyəti istiqamətinə aid digər sahələrdə əməkdaşlığın səmərəliliyinin artırılması üçün mühüm əhəmiyyət kəsb edən xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda xidmətin nümayəndələrini təyin etmək səlahiyyəti, bu fərmandan irəli gələn digər məsələlərin həll edilməsi vəzifəsi isə Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılmışdır.

Göstərilənlərlə bağlı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanının 3.3-cü bəndinə uyğun olaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi hazırlanmışdır. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində məcburi dövlət sosial sığorta haqqı hesablanmayan gəlir növlərinin siyahısı, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102-ci maddəsində isə gəlir vergisindən azad olmalar və güzəştlər müəyyən edilmişdir.

Qeyd olunan normalarda Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluğunda işləyən diplomatik xidmət əməkdaşlarına, diplomatik xidmət orqanının inzibati texniki xidmətini həyata keçirən şəxslərə ödənilən müavinətlər, kompensasiyalar və aylıq əlavə, həmçinin mühafizəsi zəruri hesab edilən Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndələrinin, konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçularının xarici ölkədə aldığı əməkhaqqı sosial sığorta haqqından və gəlir vergisindən azad edilən gəlirlər kimi təsdiq olunmuşdur. Beləliklə, diplomatik xidmət orqanları əməkdaşları ilə yanaşı, təyin olunduqları ölkələrdə dövlət qulluğunun xüsusi növündə xidmət keçən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin də həmin güzəştlərdən istifadə edilməsinin təmin edilməsi ilə əlaqədar qeyd olunan normativ hüquqi aktlarda dəyişiklik edilməsi zəruri hesab olunmuşdur.

Layihə Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin, (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları"na uyğun olaraq, ödənilən bütün növ ödənişlərin məcburi dövlət sosial sığorta haqqı ilə gəlir vergisindən azad edilməsini nəzərdə tutur. Layihə qəbul edildiyi təqdirdə təyin olunduqları ölkədə dövlət qulluğunun müvafiq növlərində qulluq, xidmət keçən şəxslərə münasibətdə qanunvericiliyin vahid mövqeyinin formalaşdırılması baxımından Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin əldə etdikləri gəlirlərindən yalnız dövlət məvacibinin məcburi dövlət sosial sığorta haqqına və gəlir vergisinə cəlb olunması təmin ediləcəkdir.

Layihə Əmək və sosial siyasət komitəsində hərtərəfli müzakirə edilmiş və birinci oxunuş üçün plenar iclasa baxılması tövsiyə olunmuşdur. Layihənin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Xahiş edirəm, Tahir müəllim, komitənin rəyini bildirin, buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, həmkarım hörmətli Arzu Nağıyev qanun layihəsi barədə əhəmiyyətli və kifayət qədər geniş məlumat verdi. Biz də hesab edirik ki, regionda mühüm güc mərkəzi olan Azərbaycan dövlətinin təhlükəsizliyinin qorunması qarşımızda duran ən mühüm vəzifələrdən biridir. Bu istiqamətdə cənab Prezidentin fərmanı 2022-ci ildə yeni imkanlar açmışdır. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının bu istiqamətdə əldə etdiyi

nəticələr və uğurlar göz önündədir. Təbii ki, bugünkü müasir çağırışlar fonunda dövlətin təhlükəsizliyinin təmin edilməsi yalnız dövlətin daxilində deyil, eyni zamanda, xarici dövlətlərdə də fəaliyyətin gücləndirilməsi labüddür.

Bu cəhətdən baxsaq, həm xarici dövlətlərdə, həm də beynəlxalq təşkilatlarda təmsil olunan Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının dövlət məvacibi istisna olmaqla, yerdə qalan bütün ödənişlərinin vergilərdən və sosial sığortadan azad edilməsi həmin əməkdaşların maddi rifahının yaxşılaşdırılması ilə yanaşı, onların peşəkarlıq səviyyəsinin daha da artırılmasına xidmət edəcəyinə inanırıq. Buna görə bizim komitənin də bu istiqamətdə edilən dəyişikliklərə rəyi müsbətdir. Həmkarlarımdan səs verməl< rini xahiş edirəm, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar var. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Müzakirə etdiyimiz qanun layihəsindən çox uzaqlaşmamaq şərti ilə sığorta mövzusunda aktual və vacib olan bir məsələyə toxunmaq istəyirəm. Bu məsələ, eyni zamanda, həm də təhsil sahəsi ilə əlaqədardır. Ümumiyyətlə, bu, dünya təcrübəsidir. Misal üçün, qonşu Gürcüstanda qanunvericilikdə xarici ölkələrdən olan tələbələrin məcburi tibbi sığortası həyata keçirilir. Bu, tələbələr qarşısında şərt kimi qoyulur, yəni sığorta olmasa, təhsili davam etdirmək mümkün deyil. Bu, həm də yaşayış yeri ilə təminat baxımından problemlər yaradır və sair.

Məncə, bizdə xarici tələbələrin qarşısında belə tələb qoyulmur, sadəcə, bu, tövsiyə xarakterlidir. Yalnız qrant əsasında ölkəmizdə təhsil alan əcnəbilər dövlət tərəfindən 200 manat dəyərində sığortalanırlar. Bu baxımdan təklif

edirəm ki, biz də bu məsələyə diqqət yetirək. COVID-19 pandemiyası bizə tibbi sığortanın vacibliyini əyani şəkildə nümayiş etdirdi. Hər gün mediada daha yeni növ virusun peyda olduğunu görürük. Fikrimcə, Azərbaycana müxtəlif ölkələrdən gələn xarici vətəndaşların, ali məktəblərimizdə təhsil alan əcnəbi tələbələrin tibbi sığorta ilə təmin olunmaları mütləqdir. Eyni zamanda, bu, yerli sığorta şirkətləri üçün də mühüm dəstək ola bilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Elnur müəllim, bu, qanun layihəsi ilə bağlı çıxış deyildi. Dediyiniz kimi, biz az kənara çıxdınız. Amma ümidvarıq ki, qanun layihəsinə səs verəcəksiniz. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, bu, çox vacib qanun layihəsidir. Dövlət təhlükəsizliyi sahəsində çalışan insanların xaricdə sosial sığortası və vergi məsələləri ilə bağlı atılan addımlar onların işinin səmərəliliyinin daha da artırılmasına xidmət göstərəcəkdir.

Qeyd edim ki, Dövlət Təhlükəsizliyi Xidməti həm 44 günlük Vətən müharibəsi dövründə, həm də ondan sonrakı bütün proseslərdə, anti-terror əməliyyatlarında kifayət qədər Azərbaycan xalqının maraqlarına xidmət edən addımlar atıb, Ali Baş Komandanın bütün tapşırıqlarını tam şəkildə yerinə yetiribdir. Hesab edirəm ki, xarici ölkələrdə bu nümayəndəliklərin olması, bu işlərin aparılması vacib şərtlərdən biridir.

Bizim xarici ölkələrdəki səfirliklərdə və diplomatik nümayəndəliklərdə təkcə Dövlət Təhlükəsizliyi Xidməti-nin deyil, eyni zamanda, hüquq mühafizə orqanlarının, digər orqanların da nümayəndələri fəaliyyət göstərirlər. Məsələn, postsovet ərazisində daxili işlər orqanlarının

nümayəndəliyi fəaliyyət göstərir. Bəzi ölkələrdə bizim hərbi attaşelərimiz var. Hesab edirəm ki, gələcəkdə onlara da bu güzəştlərin şamil edilməsi vacib amillərdən biridir ki, bunlar arasında hər hansı bir ayrı-seçkilik qoyulmasın. Çünki onların da işi, fəaliyyəti çox ciddidir.

Bizə təhdidlərin böyük əksəriyyəti xaricdən gəlir. Yəni Azərbaycanda iqtidar–xalq–dövlət birliyi mövcuddur. Bütün xalqımız son Prezident seçkilərində öz sözünü dedi, 93 faizdən artıq insan Prezidentə səs verdi, onu dəstəklədi və bununla Azərbaycan xalqı mövqeyini ortaya qoydu. Bundan sonra görürük ki, xaricdən təhdidlərin sayının artması, kampaniyaların aparılması ciddiləşibdir.

Eyni zamanda, bizim xarici ölkələrdə kifayət qədər tələbələrimiz təhsil alırlar. Çoxları çalışır ki, onları bu və ya digər formada təsir dairəsinə salsın. Həmçinin xarici ölkələrdə iş adamlarımız var. Onları da təsir dairəsinə salıb Azərbaycanda hər hansı işlərə cəlb etməyə çalışanlar var. Hesab edirəm ki, bu cür xidmətlərin güclü fəaliyyəti gələcəkdə onların da qarşısını alacaqdır.

Ən əsası, bu gün xaricdə oturub Azərbaycan əleyhinə iş aparan azərbaycanlılar var. Adlarını bloger qoyublar, onların adı bloger deyil, vətən xainidir. Bu cür insanların da fəaliyyəti ilə bağlı, güman edirəm ki, bu qurumlar ciddi iş aparmalıdırlar. Qanun layihəsinə səs verəcəyəm, həmkarlarımı da səs verməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Qanun layihəsini səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 22-ci məsələsinə keçirik. Bu məsələ "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 14 iyul tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media nümayəndələri. 2023-cü il iyulun 14-də Milli Məclisdə "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Təqdim olunan qanun layihəsinə əsasən qüvvədə olan 14 qanuna təklif olunan 36 dəyişiklik "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması məqsədi ilə hazırlanmışdır. Burada bir sıra terminlərin dəqiqləşdirilməsi, o cümlədən "həkim reseptləri" – "resept", "dərman vasitələri" – "dərman və tibb vasitələri", "milli protokol" – "klinik protokol", "normativ texniki sənədlər" – "texniki normativ hüquqi aktlar" və bu qəbildən olan bir sıra söz və ifadələrin müvafiq olaraq əvəz edilməsi nəzərdə tutulur. Həmkar-

larımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əhliman müəllim, çox sağ olun. Orada termin dəyişikliyi var, bu, uyğunlaşdırma xarakterli qanun layihəsidir. Çox sağ olun. Çıxış etmək istəyən var? Fəzail müəllim. Bu qanunla bağlıdır? Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Əhliman müəllimə də təşəkkür edirəm, qanun layihəsi haqqında kifayət qədər aydın və konkret məlumat verdi. Bu dəyişikliklər, əlbəttə, qanunvericilik baxımdan da əhəmiyyətlidir. Qanun layihəsinə səs verəcəyəm.

Hörmətli xanım sədr, dəfələrcə millət vəkilləri səviyyəsində, Milli Məclis səviyyəsində müxtəlif məsələlərin müzakirəsində dərman vasitələri, onların keyfiyyəti və qiyməti ilə bağlı məsələ qaldırılıb. Bu məsələyə aydınlıq gətirilməlidir və çalışılmalıdır ki, dərmanlara imkansız ailələrin, xüsusən pensiya alanların əlçatanlığı olsun. Bunun üçün bizim təklifimiz də olubdur. Olmazmı ki, daha çox istifadə edilən dərman vasitələrinə əlavə dəyər vergisi ya azaldılsın, ya tamamilə aradan qaldırılsın? Bu məsələni hansı səviyyədə müzakirə etmək lazımdır, xahiş edirəm, ona xüsusi diqqət yetirilsin. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə üç komitədə baxılmışdır. Əli müəllim, xahiş edirəm, sizin komitənin rəyini bildirin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Sizin dediyiniz kimi, bu, uyğunlaşdırma xarakterli qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi Cinayət Prosessual Məcəlləyə və "Məhkəmə ekspertizası haqqında" Qanuna uyğunlaşdırma məsələsinin lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. İlham müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**İ.Məmmədov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Əhliman müəllim konkret və ətraflı cavab verdi. Bu qanun layihəsi Milli Məclisin Əmək  və sosial siyasət komitəsində də müzakirə olunmuşdur. Hörmətli millət vəkillərindən birinci oxunuşun tələbinə uyğun olaraq qəbul olunması üçün səs verməyi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin də rəyini bildirin, buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim komitənin də qanun layihələrinə rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Kamran Bayramov.** Bu gün Brüsseldə ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli görüşü keçiriləcək. Şübhəsiz ki, bu görüş gedən sülh danışıqlarına xələl gətirəcək, regionda gərginliyi gücləndirəcək, Ermənistanın aqressivliyini artıracaq. Özü də təkcə Azərbaycana qarşı deyil, həm də Türkiyəyə, İrana və Rusiyaya qarşı. Əgər bu gün Ermənistan öz suverenliyini və müstəqilliyini tamamilə Vaşinqtona və Brüsselə satarsa, o zaman Cənubi Qafqazda kollektiv Qərbin hərbi və siyasi müdaxilə cəhdləri üçün əlverişli imkanlar yaranacaq.

Ermənistandan başqa hamıya məlumdur ki, ABŞ və Avropa İttifaqı Ermənistanı yalnız öz maraqlarının təminat mənbəyi, təxribatçı planlarının realizə aləti kimi istifadə edir, regionumuzu geosiyasi qarşıdurma və mübarizə meydanına çevirməyə çalışır. Bu da, təbii ki, Azərbaycanın haqlı narahatlığına və hiddətinə səbəb olur.

Əslində Cənubi Qafqazda sülh və təhlük məsələlərini ABŞ, Fransa, Avropa İttifaqı deyil, ölkələri, yəni Azərbaycan, Ermənistan, Gürcüstan, Türkiyə, Rusiya və İran həll etməlidir. Azərbaycanın və Türkiyənin mövqeyi bəllidir. Ermənistan siyasi subyektliyini, lətifəyə çevrilmiş suverenliyini artıq itirib. Amma Rusiyanın, Gürcüstanın və İranın susqun mövqeləri birmənalı olaraq təəccüb və təəssüf hissi doğurur. Sanki bu ölkələr burada deyil, haradasa uzaqdadırlar.

Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatması isə onu göstərir ki, kollektiv Qərb timsalında olan qüvvələr buna mane olurlar, Ermənistana hərbi və siyasi havadarlıq vəd edirlər və şübhəsiz ki, gələcəkdə onu bölgədə yeni münaqişəyə sövq edəcəklər. Amma qeyd

etmək yerinə düşər ki, bu ssenaridə Ermənistanın əvəzinə nə ABŞ, nə Fransa, nə də Avropa İttifaqı döyüşməyəcək. Onların verdiyi silahlar çətin ki, Ermənistana kömək etsin. Əksinə, bu proses onun siyasi intiharı və dövlətçiliyinin tam məhv edilməsi ilə nəticələnəcək.

Ermənistan bu gün də dərk etmir ki, regionda təhlükəsizlik, sabitlik, iqtisadi inkişaf təminatının yeganə və tək yolu Azərbaycanla münasibətlərin normallaşması və sülh müqaviləsinin bağlanmasıdır. Bugünkü üçtərəfli görüşü təşkil edənlər isə son üç ildə regionumuzda baş vermiş hadisələri xatırlayıb bilməlidirlər ki, Azərbaycan nəyin bahasına olursa-olsun Ermənistanın hərbi baxımdan dirçəlməsinə və regionda yeni münaqişə ocağının yaranmasına heç vaxt imkan verməyəcək.

**Könül Nurullayeva.** Sosial siyasətin prioritet istiqamətlərindən, ən həssas məqamlarından biri də zərurət yarandığı təqdirdə xəstələrin yararlı, keyfiyyətli dərman vasitələri ilə təmin olunması, həmçinin aptek şəbəkələrində tələbata uyğun dərman vasitələrinin əldə edilməsi imkanlarının genişləndirilməsidir. Yəni əhalinin istehlak bazarından daha ucuz qiymətə və daha keyfiyyətli dərman vasitələri əldə etməsi üçün hüquqi bazanın yaradılmasına davamlı olaraq çalışılmaqdadır. Təbii ki, bəlli prosedurlar keçməklə yeni məhsullar istehlak bazarına daxil olur. Bu da həm zaman, həm də maliyyə baxımından bir sıra çətinliklər yaradır. Bu layihələr imkan verir ki, qanunvericilikdə olan ziddiyyətli məqamlar, anlayışlar uyğunlaşdırılsın, "Dərman vasitələri haqqında" Qanunun inzibati orqanlar tərəfindən tətbiqinə daha əlverişli şərait yaradılsın, vahid yanaşma tətbiq edilsin.

Ölkəmizdə insanların həyat və sağlamlığının qorunması, dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdı-

rılması, respublika ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin sayının artırılması, ölkədə yarana biləcək dərman qıtlığının aradan qaldırılması, dərman vasitələrinin istehsalı ilə məşğul olan tanınmış istehsalçıların dərman vasitələrinin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsi, innovativ dərman vasitələrinin dövlət qeydiyyatına cəlb edilməsi, dərman ekspertizasının həyata keçirilmə müddətinin azaldılması, tələb edilən sənədlərin sayının azaldılması və sahibkarlıq subyektləri üçün prosesin sadələşdirilməsi məqsədi ilə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə 2023-cü il 14 iyul tarixli Qanun qəbul edilmişdir.

Layihədə təqdim olunan dəyişikliklər də məhz "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununda təsbit edilmiş müvafiq norma və yeni anlayışların təklif olunan qanunlarda tətbiqini, habelə bir sıra terminlərin dəqiqləşdirilməsini nəzərdə tutur. Bu məqsədlə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsində və "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda bir sıra terminlər dəqiqləşdirilmiş, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda isə sahibkarlara yeni vəzifə, öhdəlik müəyyənləşdirilmişdir. Belə ki, aptek təşkilatı reseptə yazılmış dərman vasitəsi və onun qiyməti barədə istehlakçıya məlumat verməyə borclu olacaq. Bu öhdəliyin icrası sui-istifadə hallarının da müəyyən mənada qarşısını alacaq.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanuna "klinik protokol" anlayışı əlavə edilərək onun izahı verilmişdir. Artıq klinik protokol bazasının yaradılması və reseptlər yazılarkən məhz həmin protokolların əsas götürülməsi məsələləri normativ hüquqi aktla tənzimlənmişdir. Göründüyü kimi, çoxsaylı qanunlara dəyişiklik edilməklə dərman ba-

zarının tənzimlənməsinə çalışılmışdır. Bu səbəbdən layihəni dəstəkləyir, bu sahənin çevik hüquqi tənzimlənməsini daim nəzarətdə saxlamalı olduğumuzu diqqətinizə çatdırırıq.

## MÜNDƏRİCAT


5 aprel 2024-cü il ................................................................ 3

Edilməmiş çıxışların mətnləri............................................. 105

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

66-cı cild

5 aprel 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  6,5. Sifariş 56. Tiraj 150.